HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 09 (851) ▪ 8 mart 2017 | www.vergiler.az | Qiyməti: 60 qəp.

# Azərbaycan-İran əlaqələri qədim tarix, mədəniyyət, ortaq din əsasında qurulub

**Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasına rəsmi səfər edib. Dövlətimizin başçısını İranın yüksək vəzifəli dövlət və hökumət rəsmiləri qarşılayıblar.**



Süvari dəstənin müşayiəti ilə «Sədabad» sarayına gələn Azərbaycan Prezidenti İlham Əliyevi İran Prezidenti Həsən Ruhani qarşılayıb. Əvvəlcə dövlət başçılarının məhdud tərkibdə, sonra isə geniş tərkibdə görüşü olub. Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti xüsusi vurğulanıb. Prezident İlham Əliyev Azərbaycanın İran ilə əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edib. Bildirilib ki, bu gün İran-Azərbaycan əlaqələri ən yüksək zirvəyə qalxıb. Görüşdə ölkələrimiz arasında mədəni, iqtisadi, dini əlaqələrin və mehriban qonşuluğun əməkdaşlığımızın əsasını təşkil etdiyi vurğulanıb, Azərbaycan ilə İran arasında qarşılıqlı sərmayə qoyuluşunun əhəmiyyəti diqqətə çatdırılıb, bu istiqamətdə bir sıra addımların atıldığı bildirilib. Söhbət zamanı iqtisadi əlaqələrimizin sürətlə inkişaf etdiyi, Xəzər dənizində, enerji, o cümlədən neft-qaz sahələrində əməkdaşlığın böyük potensialının olduğu və hərbi-texniki sahədə əməkdaşlıq üçün yaxşı perspektivlərin mövcudluğu diqqətə çatdırılıb.

Prezidentlərin iştirakı ilə sənədlərin imzalanması mərasimindən sonra hər iki dövlət başçısı mətbuata bəyanatlarla çıxış ediblər. İran Prezidenti bildirib ki, son üç il ərzində Azərbaycan-İran əlaqələri yüksək səviyyədə inkişaf edib. Bu əlaqələr istər siyasi, ikitərəfli, regional və beynəlxalq məsələləri əhatə edib, istərsə də iqtisadi və mədəni sahədə genişlənib: «Son 10 ay ərzində ticarətin həcmi iki ölkə arasında əlaqələrin inkişafının göstəricisi olmaqla, hər iki dövlətin bu əlaqələrin vüsət tapması üçün səylərini nümayiş etdirir. Azərbaycan ilə İran tranzit məsələlərində, xüsusilə də Şimal-Cənub nəqliyyat dəhlizində mühüm rol oynayır və Astara-Astara dəmir yollarının birləşdirilməsi bu mühüm layihənin gerçəkləşməsində birinci vacib addımdır». İran Prezidenti bildirib ki, bugünkü danışıqların mövzularından biri də üçtərəfli əməkdaşlıq formatı olub. Üçtərəfli əməkdaşlıq formatı - Azərbaycan-İran-Rusiya, Azərbaycan-İran-Türkiyə və Azərbaycan-İran-Gürcüstan gündəlikdədir. Prezident İlham Əliyev bəyanatla çıxış edərək bildirib ki, İran-Azərbaycan dostluq, qardaşlıq əlaqələri çox uğurla və sürətlə inkişaf edir: «Bizim əlaqələrimiz qədim tarix, mədəniyyət, ortaq din əsasında qurulub. Bu möhkəm təməl əsasında biz gözəl əməkdaşlıq qurmuşuq. Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Biz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi əsasında həll olunması istiqamətində səylərinə görə İran İslam Respublikasına minnətdarlığımızı bildiririk. Bu mövqe beynəlxalq prinsiplərə, qanuna və ədalətə əsaslanır. Hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır».

Prezident İlham Əliyev iqtisadi sahədə çox gözəl nəticələrin olduğunu, ötən il ticarət dövriyyəsinin 70 faizdən çox artdığını, bu gün imzalanmış yeni sənədlərin əlaqələrimizin inkişafı üçün möhkəm hüquqi baza yaratdığını xatırladıb.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xameneinin görüşü olub. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan və İran yaxın dost və qonşu ölkələrdir. «Şimal-Cənub nəqliyyat dəhlizi» layihəsinin həyata keçirilməsinin tarixi hadisə olduğunu deyən dövlətimizin başçısı qeyd edib ki, bu, nəinki Azərbaycanın və İranın, ümumiyyətlə digər ölkələrin bir-birinə daha da yaxınlaşmasında mühüm rol oynayacaq.

Ölkəsinin Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edən Seyid Əli Xamenei Prezident İlham Əliyevə fəaliyyətində uğurlar diləyib, Azərbaycan xalqına firavanlıq arzulayıb.

# Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınının tarixən cəmiyyətdə tutduğu mövqeyin, həyatımızın bütün sahələrində mühüm nailiyyətlərə yol açan və inkişafımızı təmin edən başlıca amil kimi müstəsna əhəmiyyəti vardır. Ötən əsrin ilk onilliklərində, dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl seçib-seçilmək hüququ qazanan qadınlarımız zəngin ictimai-siyasi fəaliyyətləri sayəsində çoxsaylı müvəffəqiyyətlər əldə etmişlər. Bu ilin respublikamızda «İslam Həmrəyliyi İli» elan edilməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, mədəniyyətin, incəsənətin, elmin və təhsilin müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları məhz onlar atmışlar. Gənc xanımlarımızın nəsillərin mənəvi varisliyi prinsipini bu gün də qorumaqla özlərinin maarifpərvər sələflərinin ləyaqətli davamçılarına çevrilmələri sevindirici haldır.

Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir. Milli varlığımızın ifadəsi olaraq əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub yaşadılması bilavasitə onun adıyla bağlıdır.

Ana məfhumu minillərdən bəri xalqımızın təfəkküründə doğma yurdu, vətən torpağını və dilimizi təcəssüm etdirmişdir. Analarımız azərbaycançılıq məfkurəsinə sadiq layiqli övladların tərbiyəsi üçün üzərlərinə düşən vəzifənin öhdəsindən bu gün də şərəflə gəlirlər. İndi ürəyi ölkəmizə hədsiz sevgiylə dolu, vətəni ana qədər müqəddəs bilərək torpaqlarımızın hər qarışını qorumağa hazır olan, müstəqilliyimizlə yaşıd bir nəsil yetişmişdir. Bu, Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən böyük töhfəsidir.

İnanıram ki, yüksək mənəviyyatınız və qurub-yaratmaq əzminizlə siz cəmiyyətimizin həyatına bundan sonra da yeni çalarlar gətirərək daim yeniləşən ölkəmizin müstəqillik salnaməsinə parlaq səhifələr yazacaqsınız.

Dərin hörmət və ehtiramla,

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 6 mart 2017-ci il

# Bakıda «Ürək Mərkəzi»nin açılışı olub

Martın 6-da Respublika Müalicəvi Diaqnostika Mərkəzinin nəzdində «Ürək Mərkəzi»nin açılışı olub. Prezident İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Mərkəzin yaradılmasında əsas məqsəd Azərbaycanda ürək xəstəliklərinin profilaktikasında, erkən diaqnostikası və müalicəsində beynəlxalq standartlara uyğun xidmətin, keyfiyyət sisteminin tətbiqinə təkan vermək, həmçinin bu sahədə çalışan peşəkarların dolğun fəaliyyətinə hərtərəfli şərait yaratmaqdır. Bu tibb müəssisəsi də ən son elmi-texniki yeniliklərə əsaslanan texnologiya və avadanlıqlarla təchiz edilib. Reanimasiya şöbəsində Azərbaycanda ilk dəfə olaraq «hibrid» əməliyyat bloku yaradılıb. «Ürək Mərkəzi»ndə xəstələrin qəbulu və müalicəsini yüksək ixtisaslı həkim-mütəxəssislər aparacaqlar.

Mərkəzlə tanış olan dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva bu səhiyyə müəssisəsinin kollektivi ilə görüşüblər. Azərbaycan Prezidenti bildirib ki, yeni «Ürək Mərkəzi» ən müasir standartlara cavab verir, dünya səviyyəsində ən yüksək qiymətə layiq olan bir mərkəzdir.

# İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti

**Martın 1-də Pakistan İslam Respublikasının paytaxtı İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti keçirilib. Sammiti İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə görüşünə ev sahibliyi edən və təşkilata sədrliyi həyata keçirən Azərbaycanın dövlət başçısı İlham Əliyev açıb.**



Zirvə görüşündə çıxış edən dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanın sədrliyi dövründə təşkilatın inkişafına və regional əməkdaşlığın dərinləşdirilməsinə böyük töhfə verilib. Azərbaycan tərəfdaşları ilə istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə iqtisadi əlaqələrini möhkəmləndirib: «Biz İqtisadi Əməkdaşlıq Təşkilatını yalnız Şərq və Qərb, Şimal və Cənub arasında fiziki körpü deyil, müxtəlif sivilizasiyaları və mədəniyyətləri birləşdirən məkan kimi təşviq etməkdə səylərimizi əsirgəməmişik. 2013-cü ildə biz Qəzvin-Rəşt-Astara (İran)- Astara (Azərbaycan) dəmir yolu layihəsi üzrə İqtisadi Əməkdaşlıq Təşkilatının birinci yüksək səviyyəli işçi qrupunun iclasını təşkil etmişik. Bu, Şimal-Cənub dəhlizi layihəsinə olan yüksək səviyyəli marağın və siyasi dəstəyin göstəricisidir. Biz, həmçinin, 2013-cü və 2014-cü illərdə enerji, regional inteqrasiya və sosial-iqtisadi inkişaf üzrə birinci və ikinci beynəlxalq konfransların təşəbbüskarı olmuşuq. Həmin konfranslarda İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa xüsusi diqqət yetirilib».

Sonra Prezident İlham Əliyevin təklifi ilə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Zirvə görüşünün sədri seçilib. Məhəmməd Nəvaz Şərif Pakistanın bu quruma sədrliyi dövründə üzv ölkələr arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün səylə çalışacaqlarını vurğulayıb.

Zirvə görüşündə söz alan Prezident İlham Əliyev Azərbaycan və Pakistan arasında qarşılıqlı etimad və dəstəyə arxalanan münasibətlərimizin uğurla inkişaf etdiyini, bunun göstəricisi kimi Pakistanın ərazimizin 20 faizini işğal etməkdə davam edən Ermənistan dövləti ilə diplomatik münasibətlər qurmadığını diqqətə çatdırıb. Regionda təhlükəsizlik və sabitliyin təmin edilməsinə toxunan Azərbaycanın dövlət başçısı yeni münaqişələrin çoxlu sayda insan itkisinə, milyonlarla insanın doğma yurdlarını tərk etməsinə səbəb olduğunu təəssüflə xatırladıb: «Azərbaycan öz təcrübəsindən bu ağrı və acıları yaxşı anlayır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi - tarixi torpağımız olan Dağlıq Qarabağ və ətraf yeddi rayonumuz işğal altındadır. Bu ərazilərdə etnik təmizləmə aparılmış və bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə bütün tarixi abidələrimiz, məscidlərimiz və qəbiristanlıqlarımız dağıdılmışdır. Ermənistan 1992-ci ildə Azərbaycana qarşı soyqırımı törətmişdir. Xocalı soyqırımı nəticəsində qətlə yetirilən 613 mülki şəxsdən 106-sı qadın, 63-ü uşaq, 70-i isə qoca olmuşdur. Min nəfərdən çox insan itkin düşmüşdür. Bu gün ondan artıq ölkə Xocalı soyqırımını tanımışdır. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Həmin qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. Ermənistan bu qətnamələrə əməl etməli və ya sanksiyalara məruz qalmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir».

Sammitdə digər çıxış edənlər İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin qarşıda duran məsələlərin həlli üçün səylərini bundan sonra daha da gücləndirmələrinin, iqtisadi əlaqələri möhkəmləndirməyin, qarşılıqlı investisiya yatırımlarının artırılmasının və səmərəli təkliflərin nəzərə alınmasının vacibliyini vurğulayıbar. Tədbirin sonunda İslamabad Bəyannaməsi qəbul edilib.

## BU NÖMRƏMİZDƏ

BEYNƏLXALQ VALYUTA FONDUNUN TƏMSİLÇİLƏRİ VERGİLƏR NAZİRLİYİNDƏ OLUBLAR — 2

VERGİ İSLAHATLARI SAHİBKARLARIN MÜZAKİRƏSİNDƏ... — 3

ADIN ŞƏRƏFLİDİR... — 4

AVTONƏQLİYYAT VASİTƏLƏRİ ÜZRƏ SADƏLƏŞDİRİLMİŞ VERGİ — 6

# Beynəlxalq Valyuta Fondunun təmsilçiləri Vergilər Nazirliyində olublar

Martın 2-də Vergilər Nazirliyində Beynəlxalq Valyuta Fondunun (BVF) nümayəndə heyəti ilə keçirilmiş görüşdə iki qurum arasında mövcud əməkdaşlıq əlaqələrinin vəziyyəti və perspektivləri, vergi siyasəti sahəsində planlar, cari ilin dövlət büdcəsinin gəlirlər hissəsinin icrası vəziyyəti müzakirə olunub.

Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinov Azərbaycanda mövcud iqtisadi vəziyyət və iqtisadi inkişaf göstəriciləri, 2016-cı ildə vergi xidmətində aparılan islahatlar barədə məlumat verib, islahatların ölkəmizin vergi sistemi üçün müsbət nəticələri, vergi daxilolmalarının artımı, bu artımı şərtləndirən amillər barədə danışıb. Bildirilib ki, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes və investisiya mühitinin yaradılması, vergi sistemində əsaslı islahatların aparılması nəticəsində qeyri-neft sektorunda artım təmin edilib.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva Vergi Məcəlləsinə edilmiş dəyişikliklər barədə ətraflı məlumat verib. Bildirilib ki, dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının daha da genişləndirilməsi, vergi yükünün azaldılması, vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması kimi istiqamətləri əhatə edir. Məqsəd kiçik və orta biznesin inkişafına daha əlveişli şərait yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, dürüst və şəffaf uçot sisteminin qurulmasıdır.

BVF nümayəndələri Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsi istiqamətində texniki imkanların genişləndirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, vergi inzibatçılığının rəqabət qabiliyyətliliyinin təmin edilməsində, qeyri-neft sektorunun inkişafı sahəsində vergilərin stimullaşdırıcı rolunun artırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndiriblər. Vergi sahəsində aparılan islahatlar nəticəsində Azərbaycanın biznesə başlama meyarları üzrə Dünya Bankının hesabatında yüksək mövqeyə layiq görülməsi xüsusi vurğulanıb.

Görüşdə 2017-ci ildə vergi daxilolmaları üzrə proqnozların icrası, qeyri-neft sektorundan vergi daxilolmalarının artım templərinin davamlı olması üçün təşəbbüslər, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər və s. barədə fikir mübadiləsi aparılıb, missiya üzvlərinin sualları cavablandırılıb.

# 2016-cı ildə Apelyasiya Şurasına daxil olmuş müraciətlər haqqında

2016-cı il ərzində Vergilər Nazirliyinin Apelyasiya Şurasının icraatında 171 müraciət olub. Həmin müraciətlərin 5-i əvvəlki ildən qalıq qalıb, 166 müraciət isə 2016-cı il ərzində daxil olub. İcraata götürülmüş müraciətlərdən 61-i səyyar vergi yoxlamaları, 42-si kameral vergi yoxlamaları, 28-i operativ vergi nəzarəti, 3-ü isə həm kameral, həm də səyyar vergi yoxlamaları ilə bağlı olub. 64 müraciətin tam, 23 müraciətin isə qismən təmin olunması barədə müvafiq qərarlar qəbul edilib.

Eyni predmet üzrə iddia ərizələrinə məhkəmə qaydasında baxıldığı üçün 15 müraciətin icraatına «İnzibati icraat haqqında» Qanunun 72.2-ci maddəsinə uyğun olaraq xitam verilib, 5 müraciət vergi ödəyicisi tərəfindən geri götürüldüyü üçün həmin Qanunun 75.1.4-cü maddəsinə əsasən baxılmadan saxlanılıb. 20 müraciət «İnzibati icraat haqqında» Qanunun 80.1.1-ci maddəsinə əsasən təmin edilməyib. 20 müraciətə Şuranın eyni məzmunlu müraciətlər üzrə müvafiq qərarları olduğu üçün, 6 müraciətə baxılması zamanı müraciətlərin predmetinin aradan qalxdığı üçün, habelə 7 müraciətə isə təklif xarakterli olduğu üçün müvafiq məktublar göndərilib. 11 müraciət üzrə qanunvericiliyə uyğun olaraq inzibati araşdırma davam etdirilir.

# Vergilər Nazirliyində 8 Mart Beynəlxalq Qadınlar Günü qeyd edilib



Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov nazirliyin rəhbərliyi adından vergi sistemində çalışan qadınları bayram münasibətilə təbrik edərək onlara çətin və şərəfli işlərində uğurlar arzulayıb.

Sonra İnsan resursları idarəsinin direktoru Faiq Şahbazov Azərbaycan Respublikası Prezidentinin 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ölkə qadınlarına ünvanladığı təbrik məktubunun mətnini tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Azərbaycan qadınının ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etdiyini, nəsillərə nümunə olan bir çox görkəmli qadınlarımızın tək öz ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqlarda da tanındıqlarını diqqətə çatdıran S.Ələkbərov onların öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bütün dövrlərdə xalqa və bəşəriyyətə fədakarcasına xidmət etdiklərini vurğulayıb.

Məhz bunun və dövlət rəhbərliyinin tanınmış Azərbaycan qadınlarına olan diqqət və qayğısının nəticəsidir ki, böyük Azərbaycan şairi Məhsəti Gəncəvinin Fransada, tanınmış şair və ictimai xadim Xurşidbanu Natəvanın Belçikada möhtəşəm abidələri ucaldılıb. Hazırkı dövrdə ölkəmizin zəngin mədəniyyətinin və incəsənətinin bütün dünyada tanıtdırılması istiqamətində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva tərəfindən görülən misilsiz işlər isə hər bir Azərbaycan qadını üçün təqdirəlayiq nümunə sayıla bilər.

S.Ələkərov Vergilər Nazirliyində, ümumən vergi orqanları strukturlarında çalışan xanımların öz işlərinin öhdəsindən ləyaqətlə gəldiklərini, onların bir çoxuna böyük etimad göstərilərək yüksək vəzifələrə irəli çəkildiklərini qeyd edib.

Sonda nazir müavini tədbir iştirakçılarını bir daha səmimi qəlbdən təbrik edərək onlara yeni-yeni uğurlar və xoş bayram əhval-ruhiyyəsi arzulayıb.

# «Cashback» həm nağdsız ödənişləri stimullaşdırır, həm də pul qazandırır

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş «Nağdsız hesablaşmalar haqqında» Qanun ölkə iqtisadiyyatında şəffaflığın artırılması, maliyyə intizamının gücləndirilməsi və vergitutma bazasının genişləndirilməsi məqsədilə nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması istiqamətində ardıcıl işlər həyata keçirmək üçün güclü hüquqi baza təmin edir. Qanunun tətbiqindən irəli gələn bir sıra məsələlərin həlli ilə əlaqədar banklar nağdsız ödənişlərin stimullaşdırılması üçün müştərilərə müxtəlif bank məhsulları təqdim etməyə başlayıb. Nağdsız ödənişlərin stimullaşdırılmasına xidmət edən layihələrdən biri də «Cashback» xidmətidir. Azərbaycanın 10-a yaxın bankı ilə «Visa» və «MasterCard»ın birgə təşkil etdiyi bu xidmət növü bank kartları vasitəsilə nağdsız alış-verişi təmin edir.

Azərbaycanda «Cashback» xidmətinin tətbiqi 2-3 il əvvələ təsadüf etsə də, 2017-ci ildən bu xidmətə qoşulan bankların, eləcə də prosesdə iştirakçı olan partnyor şirkət və mağazaların sayı artmağa başlayıb. Bu xidmət növü bank kartlarına sahib olan müştərilərin nağdsız qaydada alış-veriş etdikləri zamanı xərclənmiş pulların bir hissəsinin onların kart hesabına geri qaytarılmasıdır. Xidmətdən istifadə edən müştərinin «Cashback» məbləği xüsusi hesabda toplanır. Bu, bir növ, nağdsız ödəniş zamanı xərclənmiş vəsaitin məbləğinə uyğun pul bonusunun toplanması deməkdir. Geri qaytarılan vəsaitin həcmi hər bankın özünün müəyyən etdiyi faiz dərəcəsinə uyğun təyin olunur. Həmin məbləğ xərclənmiş vəsaitin təxminən 12-15%-nə bərabərdir.

### «Smilecard» kartla alış-veriş səmərəli üsuldur

Vətəndaşların bank kartları ilə apardıqları bütün əməliyyatlar «Cashback» hesab olunmur və xidmətə qoşulanlar müvafiq bank tərəfindən məlumatlandırılır. Məsələn, müxtəlif şəxslərə pul köçürmələri, bir hesabdan digər hesaba vəsaitin köçürülməsi, kommunal ödənişlər, telefon, internet və digər xidmət növləri üzrə ödənişlər, kredit və birja, foreks əməliyyatları, elektron ticarət və idman mərc oyunları saytlarında aparılan əməliyyatlara görə ödəmələr həmin xidmətlərə aid edilmir. Eləcə də «Cashback» layihəsinə əsasən, mağazalarda endirim kampaniyaları tətbiq olunan məhsulların alışı zamanı bonus faizi hesablanmır.

Yeni nağdsız ödəmə növlərindən olan «Smilecard» layihəsi də innovativ və müasir texnologiyalardan biri hesab oluna bilər. Bank sahəsi üzrə mütəxəssis Orxan Məmmədov hesab edir ki, həmin xidmət növü mahiyyət etibarilə «Cashback» xidmətinə bənzəyir, bu kartlar nağdsız alış-verişdə müştəriyə daha çox bonus pul - 18-20 faiz məbləğin geri qaytarılmasını təmin edir. «Smilecard» xidmətinin imkanları daha geniş tərəfdaşlar toplamağa imkan verir. «Smilecard»ın xidmətinə qoşulmuş şirkət və məntəqədən POS-terminal vasitəsilə nağdsız ödənişlər etdikdə, müştəriyə 20%-dək «Cashback» məbləği geri qayıdır. Bu xidmət şəbəkəsinə qoşulmayan müəssisə və obyektlərdən alış-veriş edən vətəndaşlara isə məbləğin 0,3%-i bonus kimi geri ödənilir. Həmin kartlarla ölkəmizdəki bütün alğı-satqı məntəqələrində istifadə etməklə yanaşı, xarici dövlətlərin ticarət və xidmət məntəqələrindən də alış həyata keçirmək mümkündür.




«Smilecard»ın digər üstünlüyü kartın pulsuz verilməsi, 4 ilədək istifadə müddətinə, pulsuz SMS məlumatlandırma və s. funksiyalara malik olmasıdır.

### «Visa» və «MasterCard» nağdsız ödənişlərə dəvət edir

Beynəlxalq ödəniş şirkətləri də ölkəmizdə nağdsız ödənişlərin stimullaşdırılması üçün banklarla sıx əməkdaşlıq edir və yeni bank çeşidləri tətbiq etməklə nağd pul bazarının məhdudlaşdırılmasına dəstək verir. «Visa International» şirkətinin MDB və Cənub-Şərqi Avropa ölkələri üzrə baş meneceri Mendi Lemb hesab edir ki, hazırda nağdsız ödənişləri həyata keçirən müştərilərin böyük hissəsi premium tipli bank kartlarının sahibləridir. Şirkət daha böyük müştəri kütləsini cəlb etmək üçün yeni kart məhsullarının bazara çıxarılmasını, onlayn ödəmələrə qoşulan partnyor mağazaların sayının artırılmasını vacib sayır. Bu məqsədlə «Visa Cash» tipli layihələrin daha geniş tətbiqi məqsədəuyğun hesab edilir. «Visa Cash» xidməti vasitəsilə iri, orta və xırda ödənişləri həyata keçirmək mümkündür. «Elektron cüzdan» adlandırılan həmin bank kartlarının istifadəçilərinin və xidmətə qoşulan müəssisələrin dairəsi son bir ildə xeyli genişlənib və bazarda böyük bir partnyor şəbəkəsi yaradılıb. Hazırda kiçik və orta ticarət, iaşə, geyim, məişət mağazalarının bu bank məhsulları ilə təmin edilməsində problemlərin aradan qaldırılması, həmin şəbəkələrin də bu xidmətə qoşulması üçün banklarla iş aparılması nəzərdə tutulur.

«MasterCard» beynəlxalq ödəniş şirkəti də müxtəlif xidmətlər üzrə nağdsız ödəmələr zamanı müştəriləri həvəsləndirən, onlara əlavə pul bonusları qazandıran layihələrin həyata keçirilməsində maraqlıdır. Məsələn, taksi və daşınma xidmətləri üzrə xüsusi ixtisaslaşmış mobil şirkət sayılan «Uber» beynəlxalq texnologiya şirkətinin «MasterCard»la birgə həyata keçirdiyi taksi xidmətləri layihəsi nağdsız ödəmələr bazarında populyarlıq qazanmaqdadır. Şirkətin bazara çıxardığı bank kartları vasitəsilə sərnişinlər avtomobil xidmətlərindən istifadə üçün ödədikləri vəsaitin bir hissəsini geri almaq imkanına malikdirlər. Layihə çərçivəsində «Uber» bank kartları ilə nağdsız ödəniş etdikdə xərclənən məbləğin 20%-dək hissəsi «cashback» kimi geri qaytarılır, həmin məbləğ sonrakı aylarda müştərinin, bir növ, pulsuz gediş haqqı olur. Bu xidmətin digər üstünlüyü kartdakı qalıq məbləğə görə müştərinin hesabındakı vəsaitə illik 6% gəlirin hesablanmasıdır.

«Uber»in MDB ölkələri üzrə baş meneceri Aleksey Stax bildirib ki, bu layihə vətəndaşları nağdsız ödənişlərə həvəsləndirən ən yaxşı stimullardan biri hesab oluna bilər. Azərbaycanda nağd ödənişlərin inkişafı üçün yeni xidmətlərin tətbiqi üzərində çalışdıqlarını deyən mütəxəssis artıq müasir tələblərə uyğun və müştərilər üçün əlverişli olan «UberX» və «UberSELECT»in də istifadəsinin mümkünlüyünü qeyd edib. Bildirib ki, kart biznesindən istifadə üçün lazımi infrastrukturun olmasına baxmayaraq, regionlarda bu sahədə texniki məsələlər aşağı səviyyədədir. İrəliləyiş əldə etmək üçün bank şəbəkələri və ödəniş terminallarının genişləndirilməsi məqsədəuyğundur.

«MasterCard»ın Türkiyə və Azərbaycan üzrə regional meneceri Yasəmin Bədir isə son dövrlər nağd ödənişlərin məhdudlaşdırılması ilə bağlı ölkə qanunvericiliyində dəyişikliklər edilməsini müsbət addım kimi qiymətləndirir. O, bir çox ticarət və xidmət şəbəkələrində aparılan əməliyyatlara görə müştərilər üçün nağd əməliyyatlara müəyyən limit qoyulmasını, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən istifadəyə cəlb olunması üçün təşviqedici addımların atılmasını məqsədəuyğun hesab edir. Nağdsız ödənişlərin inkişafının «MasterCard»ın Azərbaycandakı fəaliyyətində əsas prioritetlərdən biri olduğunu vurğulayan menecer bu sahədə şirkətlə Azərbaycan hökuməti və kommersiya bankları arasında sıx əməkdaşlıq qurulduğunu, yaxın vaxtlarda yeni birgə layihələrin həyata keçiriləcəyini bildirib.

**Elbrus CƏFƏRLİ**

## Nağdsız ödəniş etmək faydalı və rahatdır

*Bəs yeni imkanlardan istifadəyə müştərilərin marağı necədir?*

***Fazil Sadıqov:***

«Mən neçə ildir ki, nağdsız ödənişlərdən istifadə edirəm. «Uber» bank kartı da nağdsız ödənişlərin bir növüdür, bu kart taksi xidmətlərindən istifadəyə imkan verir. Ötən ilin noyabr ayından bu xidmətdən faydalanıram. Həm qiymətlər sərfəlidir, həm də ay ərzində 2-3 gün taksiyə pul ödəmirəm».

***Rəfiqə Zeynalova:***

«Cashback» barədə eşitmişdim, məndə böyük maraq oyatdı, indi bu xidmətdən istifadə edirəm. Böyük məbləğdə bazarlıq etmədiyimdən kartımda geri qaytarılmış pulun həcmi də çox deyil. Ancaq sərfəli və rahat olan bu bank kartının üstünlüklərini nəzərə alıb digər müştəriləri də nağdsız əməliyyatlara dəvət edirəm».

***Tahir Qarayev:***

«Bir neçə bank kartım var, demək olar ki, hər həftə bütün kartlarımla bazarlıq edirəm. Əsasən, böyük supermarketlərdən mal alıram, onlarda POS-terminallar normal işləyir, marketlərin çoxu hədiyyə və güzəşt kampaniyaları təşkil edir, amma onların içərisində nağdsız əməliyyatlar zamanı xərclədiyim pulun 10 faizinin qaytarılmasını təmin edən kartlar daha üstündür. Bu kartla qazandığım pullara məişət malları ala bilirəm. Kartla ödəniş etməyimə bu amil çox təsir göstərir. Digər xırda mağazalarda da bu cür həvəsləndirici vasitələr olsa, orada da aldığım malların pulunu kartla ödəyərəm. İstərdim ki, hamı bank kartları ilə yalnız nağdsız formada əməliyyat aparsın. POS-terminalla ödəniş edərkən alıcıdan heç bir pul (faiz) tutulmur. Az miqdarda ödəniş edilərkən POS-terminalda xidmət haqqı yalnız satıcı (mağaza, xidmət obyekti və s.) tərəfindən banka ödənilir».

***Asif Süleymanov:***

«Əvvəllər əməkhaqqımı iş yerimdə nağd formada alırdım. Son illər maaşım bank kartıma köçürülür, pulumun bir hissəsini nağdlaşdırsam da, qalan hissəsini kartda saxlayıb alış-veriş zamanı istifadə edirəm. İndi əksər ticarət mərkəzlərində və mağazalarda POS-terminallarla ödəniş etmək mümkündür, ona görə də xüsusi həvəsləndirici və bonuslar təqdim edən mağazalardan plastik kartla alver etməyə üstünlük verirəm. Nağdsız ödənişlər zamanı alıcılara müxtəlif hədiyyələrin verilməsini, pullarının bir hissəsinin kartda yenidən saxlanmasını yüksək qiymətləndirirəm. Bu cür xidmətlər insanların nağdsız ödənişlərə marağını artırır».

***Məmməd İsmixanov:***

«Son 5 ayda plastik kartla 800 manatdan artıq məbləğdə ödəniş etmişəm. Əsasən, supermarketlərdə ərzaq malları alıram. Kartıma təxminən 115 manat əlavə bonus vəsait yüklənib. Həmin pula eyni marketdən məişət əşyaları - termofincan, ütü və blender almaq imkanım var. Bu cür cəlbedici xidmətlər məni kartla alış-veriş etməyə həvəsləndirir. Həm rahatlıq verir, həm də əlavə mal əldə edirəm».

# Tacikistan Azərbaycan təcrübəsi ilə maraqlanır

Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadə Tacikistan Respublikası Hökuməti yanında Vergi Komitəsinin dəvəti ilə fevralın 22-24-də Düşənbə şəhərinə səfərdə olub. Məqsəd Tacikistanın Vergi Komitəsi tərəfindən həyata keçirilən «Vergi inzibatçılığında islahatlar» layihəsi çərçivəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinin qeyd edilən sahədəki təcrübəsinin öyrənilməsi və qarşılıqlı fikir mübadiləsinin aparılması olub.

Görüş zamanı Azərbaycanda elektron hökumətin yaradılması istiqamətində mühüm layihələrdən biri olan və tətbiqinə 2006-cı ildə başlanılan Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS), habelə vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə ölkəmizdə ilk dəfə elektron bəyannamələrin tətbiqi barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib. Bundan əlavə, vergi bəyannamələrinin elektron formada təqdim olunmasını təmin etmək üçün yaradılmış İnternet Vergi İdarəsinin fəaliyyəti, ümumilikdə Azərbaycanın vergi sistemində həyata keçirilən davamlı islahatlar və qarşılıqlı maraq kəsb edən digər məqamlar ətrafında fikir mübadiləsi aparılıb.

# Vergi yoxlamalarının aparılması qaydalarında dəyişikliklər

**Vergi Məcəlləsində vergi yoxlamalarını əhatə edən əlavə və dəyişikliklər bəzi çətinliklərin aradan qaldırılması və bir sıra məsələlərin təkmilləşdirilməsi məqsədini daşıyır.**

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov bu sahədə olan dəyişiklikləri şərh edərək bildirmişdir ki, dəyişikliklərdə kameral vergi yoxlamalarının 30 iş günü müddətində başa çatdırılması nəzərdə tutulub: «2017-ci ilin 1 yanvar tarixinədək qüvvədə olan qanunvericiliyə əsasən, kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən 30 gün müddətində keçirilirdi. Vergi ödəyiciləri tərəfindən müvafiq sənədlərin vaxtında təqdim edilməməsi və ya ümumiyyətlə sənədləşmənin aparılmaması bəzən kameral qaydada keçirilən vergi yoxlamalarının müddətinin uzadılması ilə nəticələnirdi. Bu cür halların aradan qaldırılması məqsədilə kameral vergi yoxlamasının vergi bəyannaməsinin təqdim edildiyi vaxtdan 30 iş günü müddətində həyata keçirilməsini və bu müddət başa çatdıqdan sonra həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlamasının keçirilməsini qadağan edən müddəa Vergi Məcəlləsinin 37-ci maddəsinə daxil edilib».

Vergi orqanlarında risklərin avtomatlaşdırılmış qaydada emalı sisteminin tətbiqinə başlanılıb ki, bu da bəyannamələrin 30 gün müddətində kameral qaydada yoxlanılmasına imkan verəcək: «Kameral vergi yoxlaması başa çatdıqdan sonra vergi orqanı verginin hesablanması üçün əlavə sənəd və mənbəyi məlum olan digər məlumat aşkar etdikdə vergi ödəyicisinə 5 iş günü müddətində dəqiqləşdirilmiş vergi bəyannaməsinin 10 iş günü müddətində təqdim edilməsi üçün müəyyən edilmiş forma üzrə müvafiq bildiriş göndərəcək».

Vergi yoxlamalarına aid müddəalarda edilmiş dəyişikliklərlə elektron auditin tətbiqi dairəsi də genişlənib. Dövlət vergi siyasətinin əsas hədəflərindən biri sahibkarlarla vergi orqanı arasında birbaşa təmasın minimuma endirilməsi və əlaqələrin elektron qaydada həyata keçirilməsindən ibarətdir: «Bununla əlaqədar Vergi Məcəlləsinin 13.2.68-ci maddəsinə «elektron audit» anlayışı daxil edilib ki, həmin anlayışa əsasən elektron audit vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradılmaqla aparılan vergi yoxlaması deməkdir. Bununla yanaşı, Məcəllənin «Operativ vergi nəzarəti»nə aid 50-ci maddəsinə «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almayan vergi ödəyicilərinin aşkar edilməsinə, nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı qanunla müəyyənləşdirilmiş tələblərə əməl olunmasına, pul vəsaitinin uçotdan gizlədilməsi və ya uçota alınmaması hallarına və malların Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaimə-faktura və ya elektron qaimə-faktura və yaxud elektron vergi hesab-fakturası əsasında alınmasına nəzarət edilməsi məqsədilə 50.1.10 - 50.1.13-cü maddələr əlavə olunub».

Vergi Məcəlləsinə əlavə edilmiş yeni - 55.1.3-1-ci maddə ilə «Vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən hallar» sırasına vergi qanunvericiliyi ilə bağlı hüquq pozuntusunun vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərara əsaslanmaqla və ya onun icrası nəticəsində törədilməsi də təsbit olunub. Vergi Məcəlləsinin «Hesabatın və digər məlumatın təqdim edilməsi ilə bağlı hüquqpozmalara görə maliyyə sanksiyaları»na aid 57.3-cü maddəsinə edilən dəyişikliyə əsasən, «vergi nəzarətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri olan sənədlərin və ya onların lazımi qaydada təsdiq edilmiş surətlərinin vergi orqanının müraciətinə əsasən 10 iş günü müddətində təqdim edilməməsinə görə 100 manat məbləğində maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulur: «57.4-cü maddəyə əsasən isə ölkə rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər arasında, qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə həmin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi arasında və Azərbaycan Respublikasının rezidenti və qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş subyektlər arasında ümumi dəyəri 500 min manatdan artıq olan əməliyyatlara dair arayışın hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec təqdim edilməsinə görə 500 manat məbləğində maliyyə sanksiyasının tətbiqi nəzərdə tutulur. Vergi Məcəlləsinə əlavə edilmiş 58.7-1-ci maddəyə əsasən «Nağdsız hesablaşmalar haqqında» Qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada həyata keçirilməsinə görə malı təqdim edən vergi ödəyicisinə qanunvericilik pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi miqdarında, ikinci dəfə yol verdikdə 20 faizi miqdarında, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulur».

**Əsas hədəflərdən biri sahibkarlarla vergi orqanı arasında birbaşa təmasın minimuma endirilməsi və əlaqələrin elektron qaydada həyata keçirilməsindən ibarətdir**

Vergi Məcəlləsinin 58.8-ci maddəsinə edilmiş dəyişikliklərə əsasən, səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinə məxsus pul vəsaitlərinin uçotdan yayındırılmasına görə vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsi, həmin mallar vergi ödəyicisinin özü tərəfindən istehsal edildikdə isə Vergi Məcəlləsinin 130-1-ci maddəsi ilə müəyyən edilmiş qaydada tərtib edilən sənədlərdən ən azı biri olmadıqda maliyyə sanksiyalarının tətbiqi nəzərdə tutulur: «Pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə 1000 manatdan çox olan hissəsinin 5 faizi, il ərzində belə hala təkrar yol verildikdə 1000 manatdan çox olan hissəsinin 10 faizi miqdarında, malların alışını və ya madaxilini təsdiq edən sənədlərdən ən azı biri olmadıqda təqvim ili ərzində belə hala birinci dəfə yol verildikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verildikdə 20 faizi, üç və daha çox dəfə yol verildikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. Vergi Məcəlləsinə əlavə edilmiş 58.12-ci maddəyə əsasən isə vergi orqanından «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında, təqvim ili ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə isə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir».

**A. NƏBİYEVA**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin mart və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin mart və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Vergi islahatları sahibkarların müzakirəsində...

*Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə keçirilmiş «Vergi sistemində aparılan islahatlar: vergi qanunvericiliyində və inzibatçılığında yeniliklər» mövzusunda görüşdə 120-dən artıq sahibkar iştirak edib.*

Tədbirdə vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov çıxış edərək bildirib ki, vergi sistemində aparılan səmərəli islahatlar sayəsində məmur-sahibkar ünsiyyəti minimuma endirilib, sahibkarlarla dialoqun daha çox xidmət strukturları tərəfindən aparılmasına üstünlük verilir.

Ə.Məmmədov çıxışında «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanunu şərh edərək bildirib ki, bu qanun ölkəmizdə sahibkarlığın stimullaşdırılması, əlverişli biznes mühitinin formalaşdırılması və vergi yükünün optimallaşdırılması məqsədini daşıyır. Qanunun tətbiqi nəticəsində vergi ödəyicilərinin 727 milyon manat həcmində faiz borcları silinib və 357 milyon manat həcmində vergi borcunun müəyyən şərtlərlə silinməsi üçün də sahibkarlara imkan yaradılıb.

Ölkədə nağdsız əməliyyatların həcminin artmasına, bankların maliyyə vəziyyətinin yaxşılaşmasına, maliyyə sektorunun likvidliyinin və büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin edilməsinə şərait yaradacaq «Nağdsız hesablaşmalar haqqında» Qanunun tətbiqinə başlanıldığı da sahibkarların diqqətinə çatdırılıb. Bildirilib ki, qanuna əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən hesablaşmaların nağd qaydada aparılması təqvim ayı ərzində 30 min manatadək, digər vergi ödəyiciləri tərəfindən isə ay ərzində 15 min manatadək məhdudlaşdırılır: «Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair strateji yol xəritəsində nəzərdə tutulan indikatorlardan bir neçəsi məhz nağdsız hesablaşmalara aiddir. Belə ki, strateji yol xəritəsində nağdsız əməliyyatların xüsusi çəkisinin 2016-cı ildəki 8 faizdən 2020-ci ilədək 30 faizə, 2020-2025-ci illərdə 50 faizə, 2025-ci ildən sonra isə 80 faizə çatdırılması, POS-terminallar vasitəsilə aparılan əməliyyatların məbləğinin 400 milyon manatdan 2,7 milyard manatadək artırılması nəzərdə tutulur».

Ə.Məmmədov Vergi Məcəlləsində nəzərdə tutulan azadolmalar və güzəştlər barədə bildirib ki, icbari tibbi sığorta və səhiyyə xidmətlərini göstərən dövlət qurumları mənfəət vergisindən müddətsiz, buğdanın idxalı və satışı, buğda unu və çörəyin istehsalı və satışı, quş ətinin satışı 3 il müddətinə ƏDV-dən azad edilib: «Bankların restrukturizasiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində qeyri-işlək aktivlərin təqdim olunması 3 il müddətinə ƏDV-dən azad edilib. Banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin gəlir vergisindən azad olunması isə 7 ilə qədər uzadılıb. İxracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti əməliyyatlarında yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin qaytarılması müddəti 45 gündən 20 günə qədər qısaldılıb. Bu azadolmalar və güzəştlər vergi ödəyicilərinin vergi yükünün azaldılmasına, dövriyyə vəsaitlərindən səmərəli istifadə olunmasına şərait yaradacaq, sahibkarlığın inkişafına dəstək verəcək».

Vergi orqanlarının əsas vəzifəsinin dövlət büdcəsinə vergi daxilolmalarını vaxtında və tam həcmdə təmin etməkdən ibarət olduğu vurğulanıb: «Ötən il 16 milyard 822 milyon manat olan dövlət büdcəsinin 41%-i, yəni 7 milyard 15 milyon manatı vergi daxilolmaları hesabına təmin edilmişdir. Bu il həmin rəqəmin 46,2%-ə çatdırılması, başqa sözlə, 16 milyard 225 milyon manatlıq büdcənin 7 milyard 510 milyon manatının vergi daxilolmaları hesabına formalaşdırılması proqnozlaşdırılır. Ona görə də Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin bir hissəsi vergitutma bazasının genişləndirilməsi ilə bağlıdır».

Transfer qiymətinin tətbiqi, elektron vergi hesab-fakturası, elektron ticarətin vergiyə cəlb olunması, könüllü vergi açıqlaması, sabit vergi ödəyiciləri, vergi partnyorları və digər yeniliklər barədə də sahibkarlara ətraflı məlumat verilib. Vergilər Nazirliyinin nümayəndələri - Vergi siyasəti və strateji araşdırmalar departamentinin şöbə rəhbəri Əvəz Quliyev, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Xidmətin təşkili idarəsinin direktoru Azər Şirinov və həmin idarənin məlumatlandırma və təbliğat işinin təşkili şöbəsinin rəhbəri Bəxtiyar Abdurəhmanov sahibkarları maraqlandıran sualları cavablandırıblar.

### *Tədbirdə müzakirə olunan məsələlərə sahibkarlar da münasibət bildiriblər:*

***İqtisadi resursların öyrənilməsi mərkəzinin sədri Ruslan Atakişiyev:*** «Vergi Məcəlləsinə edilmiş dəyişiklikləri iki əsas istiqamətə ayırmaq olar: vergi bazasının genişləndirilməsi və nağdsız hesablaşmaların səviyyəsinin artırılması. Vergi bazasının genişləndirilməsini vergitutma mənbələrinin diferensiallaşdırılmasında, sahibkarlıq subyektlərinin iri və kiçik olmaqla bölgüsündəki yeni yanaşmalarda görə bilərik. Nağdsız hesablaşmaların həyata keçirilməsi istiqamətində görülən işlər isə ölkəmiz üçün ilkin addımdır. Bu gün nağd hesablaşmaların səviyyəsinin azaldılması, şəffaflığın artırılması məsələsi önə çəkilir. Bu yenilik özlüyündə Azərbaycan şəraitində sahibkarlarda müəyyən çətinlik formalaşdırsa da, növbəti mərhələdə uçotun şəffaf aparılmasına kömək göstərəcək. Sahibkarlıq subyektləri uzun illərdir ki, ənənəvi qaydalara öyrəşiblər, yeniliklərə hazır deyillər. Amma biz bu gün beynəlxalq aləmə inteqrasiya edirik və qeyri-neft sektorunun inkişafında bu dəyişikliklərə mütləq getməliyik».

***«L.B Audit və Consulting» şirkətinin direktoru Lamiyyə Bayramova:*** «Vergi Məcəlləsinə edilmiş son dəyişiklikləri müsbət qiymətləndirirəm, arzu edirəm ki, bu dəyişikliklər son olmasın. Onu da nəzərdən qaçırmaq olmaz ki, yeniliklərin insanlara lazımi səviyyədə çatdırılması üçün böyük işlər aparılmalıdır. Xüsusilə regionlar bir çox yeniliklərə hazır deyillər. Bu baxımdan, onları bu yeniliklərə hazırlamaq üçün müəyyən vaxta ehtiyac var».

***«Atlant» istirahət mərkəzinin rəhbəri Tahir Qədəşov:*** «Bütün vətəndaşlar kimi, bizim də vəzifəmiz qanunlara əməl etmək, qanundan irəli gələn vəzifələri yerinə yetirməkdir. Vergi Məcəlləsinə edilmiş sonuncu əlavə və dəyişikliklər də sahibkarların inkişafının stimullaşdırılması istiqamətində atılan növbəti addımlardan biridir. Çox istərdik ki, növbəti dəyişikliklər zamanı bölgələrlə Bakı şəhərində olan turizm məkanları bir-birindən seçilsin və regionlardakı turizm obyektlərinə bəzi stimullaşdırıcı şərtlər müəyyənləşdirilsin. Çünki regionlarda turizmin inkişafı yalnız müəyyən aylarda mümkün olur».

**Aytən NƏBİYEVA**

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar tamamilə silinmişdir.

Mart ayının 1-dən etibarən vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı şərtlərlə silinə bilər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

**Maliyyə sanksiyasının məbləğini**
**143490 büdcə təsnifatı kodu üzrə ödəməyiniz xahiş olunur**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Adın şərəflidir...

## Əziz xanımlar! Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirik!

Bu gün hamımız üçün əziz bir bayramı qeyd edirik. Bu bayramın harada, nə vaxt, kim tərəfindən və nə münasibətlə təsis edilməsindən asılı olmayaraq, 8 Mart hər birimizin yaddaşının, ruhunun dərinliyində ayrıca yer tutur. Dünyaya göz açdığımız vaxtdan bəri ilin bu günü yaddaşımızda ana sevgisinin möhtəşəmliyini, gözəlliyin ülviyyətini, qadın mərhəmətinin sonsuz hənirini həkk eləyən bir bayram kimi qalıb. Bu gün hamımız üçün, sadəcə, bir «təqvim bayramı» deyil, sözün əsl mənasında, qəlblərimizin bayramıdır. «8 Mart» deyəndə, qadınlar qarşısında borclu olduğumuzu düşünürük: gözəl, zərif, şəfqətli olduqlarına görə onlara diqqət və həssaslıq borcumuz var. Müdrik, təmkinli, zəhmətkeş və fədakar olduqlarına görə minnətdarlıq borcumuz var. Qayğılı dünyamıza bayram havası gətirdiklərinə görə isə təşəkkür və təbrik borcumuz var...

Müstəqil bir dövlət olaraq Azərbaycanın ən böyük nailiyyətlərindən biri də, heç şübhəsiz, bu gün qadınlarımızın dövlət və hökumət idarəetmə strukturlarının ən yüksək mövqelərində layiqincə yer tutmalarıdır. Bunun əsl mənası və əhəmiyyəti, sadəcə, «gender bərabərliyi» faktı olaraq qalmır, ölkəmizdəki ictimai münasibətlər sisteminin keyfiyyət baxımından yüksək inkişaf səviyyəsini əks etdirir. Elə bir inkişaf səviyyəsi ki, tarix boyu ulu mütəfəkkirlərimizin işıqlı ideallarından biri olub: «Qadın gülərsə şu issız (kimsəsiz) mühitimiz güləcək, sürüklənən bəşəriyyət qadınla yüksələcək!..» - böyük Hüseyn Cavid belə yazırdı.

Bu gün vergi orqanlarında qadınlara göstərilən qayğı və diqqət, təbiətinə görə «sərt fəaliyyət sahəsi» hesab olunan bir sistemdə onlara məsul vəzifələr etibar edilməsi də məhz cəmiyyətimizin yetkinlik səviyyəsinin bir göstəricisi kimi qəbul olunmalıdır. Bu, hər şeydən öncə, qadınlarımızın qabiliyyət, bacarıq və səriştələrinə verilən layiqli qiymətdir.

Bəs vergi orqanlarında vəzifə tutan qadınlar öz iş həyatları ilə şəxsi həyatlarını necə tarazlaşdırır, hansı arzularla yaşayırlar? Sözü qadın həmkarlarımıza veririk...



## Hər bir uğurun arxasında böyük zəhmət durur



**Samirə Musayeva**
*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru*

Samirə Musayeva 2007-2010-cu illərdə Vergilər Nazirliyi yanında Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin Qeydiyyat şöbəsində hüquqşünas və baş hüquqşünas vəzifələrində çalışıb. 2010-2011-ci illərdə Hüquqi təminat idarəsinin rəis müavini və rəisi, 2011-2016-cı illərdə Hüquq baş idarəsinin rəisi olub. Hazırda Vergi siyasəti və strateji araşdırmalar departamentinə rəhbərlik edir. «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif edilib.

Həm ailədə, eyni zamanda iş fəaliyyətində vaxtın balanslaşdırılmasını vacib hesab edən Samirə xanımın fikrincə, bu zaman kəmiyyətə deyil, daha çox keyfiyyətə önəm vermək lazımdır: «İki azyaşlı övladım var, çalışıram ki, işdənkənar həyatımın hər dəqiqəsini övladlarıma, ailəmə sərf edim, onlarla mümkün qədər keyfiyyətli vaxt keçirim. Valideyn nəvazişi görmək uşaqların gələcəkdə şəxsiyyət kimi yetişməsində faydalı olur. Hesab edirəm ki, mən o balansı tapmışam. Həftə sonları, bayram günləri, məzuniyyətdə olduğumuz dövrdə onlarla gözəl, faydalı vaxt keçirirəm. İşləyən xanımların şəxsi həyatlarında üzləşdikləri vaxt kasadlığının təkcə vaxt problemindən qaynaqlandığını düşünmürəm. Bu, daha çox vaxtın düzgün idarə edilməməsindən yaranan problemdir».

Həyatda hər bir irəliləyişin arxasında böyük zəhmət durduğunu vurğulayan müsahibimin sözlərinə görə, mübarizə aparmadan, yüksək biliyə sahib olmadan müasir dövrdə hər hansı uğur qazanmaq müşkül məsələdir: «Ali təhsil aldığım dövrdə prezident təqaüdçüsü olmuşam. Universitetin bakalavr və magistr pilləsini fərqlənmə diplomu ilə bitirmişəm. Aktiv fəaliyyət nəticəsində işgüzar həyatda uğur qazanmaq istəmişəm və buna nail olmuşam.

Sevinirəm ki, ətrafımda hər zaman düzgün, məni dəstəkləyən, hər bir zəhmətimə qiymət verən insanlar olub. Şəxsi həyatıma gəlincə, ailəmlə, valideynlərimlə, övladlarımla fəxr edirəm. Ana olandan sonra bütün arzularım övladlarımla bağlıdır».

Hər bir Azərbaycan xanımının uğuruna ürəkdən sevindiyini deyən Samirə xanım öz təcrübəsinə və müşahidələrinə əsasən hesab edir ki, insan təmiz vicdanı və əzmkarlığı ilə zəhmətə qatlaşanda həyatdakı arzularını mütləq gerçəkləşdirə bilir: «Fürsətdən istifadə edib bütün xanımların bayramını təbrik edirəm. Hər bir qadına sülh, əmin-amanlıq içində xoşbəxt yaşamaq, daxili təlatümlərdən uzaq olmağı arzu edirəm»...

## Qadın həyatı sevgi, dözüm və fədakarlıqdan yoğrulub



**Yeganə Balakişiyeva**
*Vergilər Nazirliyinin Hüquq departamentinin baş direktoru*

2003-cü ildən vergi sistemindədir. Vergilər Nazirliyinin Tədris Mərkəzinin Vergi qanunvericiliyi və təsərrüfat hüququ kafedrasının dosentidir. 2012-2016-cı illərdə Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəis müavini vəzifəsində çalışıb. 2016-cı ilin iyun ayından indiki vəzifəsindədir.

Gənc yaşlarından mükəmməl bir hüquqşünas kimi yetişmək, elm aləminə töhfələr vermək, cəmiyyətimiz və millətimiz üçün faydalı insan olmaq kimi arzularla yaşadığını bildirir: «Arzularıma çatmaq üçün həyatda müəyyən irəliləyiş əldə etdiyimi düşünürəm. İnanıram ki, insan həmişə təkmilləşməyə və hər gün dünənkindən daha yaxşı olmağa çalışmalıdır».

Yeganə xanım üçün iş həyatın bir parçasıdır: «Bir valideyn kimi hər zaman övladlarımın yanında olmağa çalışmışam. Uşaqlarımdan nigaran deyiləm. Amma işdən qalan vaxtımı ailəmlə keçirməyə çalışıram».

Ən dəyərli və ən əziz bayram hədiyyəsinin isə övladlarının uşaq yaşlarında onun üçün çəkdikləri şəkillər olduğunu bildirdi...

## Səbr etmədən arzulara çatmaq mümkün deyil



**Səfiyyə Hacıyeva**
*Vergilər Nazirliyinin Mühasibat uçotu şöbəsinin rəhbəri, baş mühasib*

1991-2000-ci illərdə Baş Dövlət Vergi Müfəttişliyində mühasib, aparıcı mühasib vəzifələrində, 2000-2014-cü illərdə Vergilər Nazirliyinin Maliyyə idarəsinin Maliyyə şöbəsində aparıcı iqtisadçı vəzifəsində çalışıb. 2014-cü ilin iyun ayında Mühasibat uçotu şöbəsinin rəisi olub, hazırda nazirliyin baş mühasibidir. «Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi (2000-2010)» münasibətilə yubiley medalı ilə təltif edilib.

Vergi orqanlarında hələ tələbə olarkən işləməyə başlayan S.Hacıyevanın artıq 26 illik iş stajı var. Özünü başqa yerdə, başqa işdə təsəvvür edə bilmədiyini, çox maraqlı peşəsi olduğunu və hər gün işə həvəslə gəldiyini deyir: «Rəhbərlik tərəfindən mənə yüksək etimad göstərilərək belə bir məsuliyyətli işə təyin olunmuşam və daim bu etimadı doğrultmağa çalışmışam».

Şəxsi və işgüzar həyatı arasında tarazlığı qoruyub saxlamaqla bağlı belə hesab edir ki, balansı qorumaq peşəsindən irəli gəldiyindən buna həyatda da nail ola bilib. Üç övlad böyüdüb həyatda yerbəyer etməsi ilə fəxr edir. Təzəlikcə həyatında daha mühüm bir hadisə də baş verib: nənə də olub. İlk nəvənin cavan nənəsidir...

S.Hacıyeva hesab edir ki, çətinliklərə dözmədən, səbr etmədən arzulara çatmaq mümkün deyil. İndiyədək aldığı ən dəyərli hədiyyəsi isə vergi xidməti işçilərinin peşə bayramı münasibətilə dövlət başçısının sərəncamına əsasən «Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi (2000-2010)» yubiley medalı ilə təltif edilməsidir.

## Vaxtımı düzgün bölməklə prioritetlərimi müəyyən edə bilirəm



**Zeynəb Qurbanova**
*Vergilər nazirinin katiblik məsələləri üzrə müşavir xidməti şöbəsinin Protokol bölməsinin rəhbəri*

2011-ci ildən Vergilər Nazirliyində işləyir: «Vergi orqanında fəaliyyət dinamiklik, şəxsi inkişaf, daima öyrənmək deməkdir. Protokol və etiket sahəsi maraqlı və çoxşaxəli olmaqla, xüsusi diqqətlə, incəliklərlə və detallarla işləməyi tələb edir. Bu artıq mənim həyat tərzimə çevrilib. Özümdən asılı olmayaraq, işdən kənar həyatımda da protokol və etiketi tətbiq edir, insanlara təsir edə bilirəm. Belçika Krallığında Avropa Protokol Məktəbində beynəlxalq protokol təlimində öyrəndiyim, mənə də maraqlı və yeni olan məsələləri həmişə dostlarımla bölüşürəm».

Z.Qurbanovanın fikrincə, bir xanım olaraq həm işləmək, həm özünə vaxt ayırmaq, əzizləri və sevdikləri ilə maraqlana bilmək, onları tam qayğı ilə əhatə etmək həmişə asan olmur: «Mən, bunlarla yanaşı, həm də tələbəyəm, oxumaq həyatımın ayrılmaz tərkib hissəsidir. Mütəmadi oxuyur, imtahanlara hazırlaşıram. Biri bitir, digəri başlayır. Yəni şəxsi, işgüzar və tələbə həyatını birlikdə apararkən bəzən çox böyük yükün altında olduğumu hiss edirəm. Amma məsələ bundadır ki, mən vaxtımın belə keçməsindən zövq alıram. Bu, mənim öz seçimimdir. Gördüyün işin sonunda rəhbərlik tərəfindən gülərüzlə deyilən bir «afərin» sözü, imtahandan aldığın yaxşı qiymət və müəllimin müsbət rəyi, əzizlərinin və sevdiklərinin gün ərzində səninlə qayğı ilə maraqlanması, qaçaqaçla olsa da, zəng edib «necəsən, günün necə keçir?» soruşmaları və onların gülər üzü işin yükünü yüngülləşdirir və gözəl əhval oyadır. Fikrimcə, vaxtımı düzgün bölüb, prioritetlərimi saatlıq, günlük müəyyən edə bilir və həmişə pozitiv qalmağı bacarıram. Bunu üstünlüyüm hesab edirəm və bununla ev-iş balansını qorumağa nail oluram».

Zeynəb xanım bayram hədiyyələrinin onda xoş təəssürat oyatdığını deyir: «Orta məktəbdə oxuyanda parta yoldaşlarımız oğlanların səmimi sözləri yazılan təbrik açıqcalarını bu gün də xatırlayanda üzüm gülür. İşgüzar həyatımda isə cənab nazirin əmri ilə iki dəfə «Təşəkkür»ə layiq görülmüşəm. Bu, çox stimulvericidir və mənim üçün hər zaman xüsusi xatırlanan hədiyyədir».

## Ailənin dəstəyi olarsa, qadın daha yüksək nailiyyətlər əldə edə bilər



**Elnurə Ələsgərova**
*Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzinin dövlət vergi müfəttişi*

2001-2003-cü illərdə «Vergilər» qəzetində çalışıb. 2004-cü ildən vergi orqanı əməkdaşıdır: kiçik vergi xidməti müşaviri, dövlət vergi müfəttişidir: «Vergi sistemi ölkə iqtisadiyyatının böyük yükünü öz üzərində daşıyır, baş verən iqtisadi sosial proseslərə ən çevik reaksiya verən bir qurumdur. Ona görə də burada işləmək maraqlı olduğu kimi, həm də səbr, təmkin tələb edir. Vergi orqanı mənim üçün sadəcə iş yeri deyil, bir növ doğma ab-hava deməkdir, peşəkar insanlarla bir yerdə çalışmaq zövqü və fəxr hissidir. İşlədiyim struktur kiçik bir şöbədən funksional mərkəzə çevrilib. İşimin xarakteri elədir ki, vergi sistemində baş verən bütün yeniliklərdən, islahatlardan, müsbət dəyişikliklərdən dərhal xəbərdar oluram və onun ictimaiyyətə çatdırılmasında rolum olduğuna görə qürur duyuram».

Elnurə xanım şəxsi və işgüzar həyat arasında balans məsələsinə özünəməxsus tərzdə yanaşır: «Qadın güclü məxluqdur: həm anadır, həm övladdır, həm həyat yoldaşıdır, həm də zərif xanım. Əvvəllər vergi sistemində çalışan qadınların sayı çox deyildi. Rəhbər vəzifədə isə demək olar ki, yox dərəcəsində idi. İndi nazirlikdə bütün səviyyələrdə qadınların sayı çoxalıb. Bunun səbəbi həm ailənin, həm də cəmiyyətin qadınlara işgüzar fəaliyyətini genişləndirməkdə şərait yaratmasıdır. Təbii ki, ailənin dəstəyi olarsa, qadın böyük nailiyyətlər qazana bilər».

Elnurə xanımın arzuları övladlarının gələcəyi ilə bağlıdır. Onları sağlam, savadlı, tərbiyəli, cəmiyyətə layiqli insan və ən əsası xoşbəxt insan kimi yetişdirməkdir. Ən qiymətli hesab etdiyi bayram hədiyyəsi isə tam fərqlidir: «Mən bu bayramda həyat yoldaşımdan evlilik təklifi almışam»...

## Bundan böyük şərəf ola bilərmi?!



**Şəhla Canbaxşıyeva**
*Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş dövlət vergi müfəttişi*

1994-cü ildən dövlət vergi orqanlarında xidmət edir. Hazırda Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş dövlət vergi müfəttişi vəzifəsində çalışır. Qüsursuz xidmətə görə 2010-cu il tarixində Azərbaycan Respublikası Prezidentinin 10.02.2010-cu il tarixli Sərəncamı ilə «Vergi orqanlarında fərqlənməyə görə» 3-cü dərəcəli Azərbaycan Respublikasının medalı ilə təltif edilib.

Vergilər Nazirliyinin yaradılmasının 16 illiyi ilə əlaqədar tutduğu vəzifə üçün nəzərdə tutulandan bir pillə yuxarı - baş vergi xidməti müşaviri rütbəsi verilib: «23 ildir vergi orqanlarında xidmət göstərirəm. Bura mənim üçün evim, ailəm qədər doğmadır. Vergi orqanlarından öncə bir neçə yerdə iqtisadçı kimi fəaliyyət göstərmişəm. Lakin yeni formalaşmağa başlayan vergi sistemindəki dəyişmələrin içində olmaq, ölkəmizin iqtisadi həyatının tənzimlədiyi orqanda fəaliyyət göstərmək tam fərqlidir: xalqa, dövlətə, vətənə xidmət etmək deməkdir. Bundan böyük şərəf ola bilərmi?»

Ş.Canbaxşıyeva iş həyatı ilə şəxsi həyatın uzlaşdırılması barədə o fikirdədir ki, indiyə qədər bu balansı qoruya bilib...

## Həyat insanlara verilmiş ən qiymətli hədiyyədir



**Təranə Tağıyeva**
*14 saylı Ərazi Vergilər İdarəsinin Koordinasiya bölməsinin rəhbəri*

Vergi orqanında çalışmağın şərəfli olduğu qədər böyük məsuliyyət tələb etdiyini deyən Təranə xanımın sözlərinə görə, rəhbərlik tərəfindən aldığı təşəkkür və təltifləri bu məsuliyyəti doğrultduğunun təsdiqi kimi qiymətləndirir. Şərəfli hesab etdiyi yolda uğur qazanmağı böyük xoşbəxtlik hesab edir.

T.Tağıyevanın yanaşmasına görə, iş də, ev qayğıları da insanın həyatıdır, bunları bir-birindən ayırmaq mümkün deyil. İşə nə dərəcədə məsuliyyətlə yanaşırsansa, evində də, cəmiyyət arasında da o dərəcədə məsuliyyətli olmalısan. Onun fikrincə, həyat insanlara verilmiş ən qiymətli hədiyyədir və bu hədiyyəni layiq olduğu qədər dəyərləndirmək və qorumaq lazımdır. O ki qaldı bayram hədiyyəsinə: «Biz sevdiklərimizin və bizi sevənlərin hədiyyələrini böyük məmnuniyyətlə qəbul edirik, çünki bu, insanın özünün özünə hədiyyəsi kimidir»...

# Adın şərəflidir...

**Əziz xanımlar! Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirik!**

## Üzügülər balalarımı görüb yorğunluğumu unuduram



**Nigar Alimova**
*Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Qeydiyyat-uçot şöbəsinin rəhbəri*

Vergilər Nazirliyində 2007 - ci ilin dekabr ayından hüquqşünas kimi fəaliyyətə başlayıb: «Bü gün mən işimi vergi orqanı əməkdaşı adına layiq həyata keçirə bilirəmsə, bu, mənim üçün böyük xoşbəxtlikdir. Bizi zərif və zəif məxluq adlandırırlar. Zərifliklə razılaşsam da zəif olmağımız fikrini qəbul etmirəm. İş həyatımda özümü güclü hesab etməyim mənə çox kömək olub. Mən həm də 2 övlad anasıyam. Bu adı daşımaq şərəfli olmaqla yanaşı, həm də böyük məsuliyyətdir. İş həyatına bağlılıq ev xanımı olmağıma mane olmur. Düzünü desəm, iş və ailə həyatı mənim üçün paralel həyat fəlsəfəsidir və bu iki sahə arasında balans quraraq uyğunluq yarada bildiyimi düşünürəm. Ailə üzvlərimlə birgə olmaq, ailə qayğılarını ortaqlı daşımaq mənə qol-qanaq verir, üzügülər balalarımı görüb yorgunluğumu unuduram. İşə hər səhər yeni qüvvə ilə gəlirəm. Düşünürəm, yaxşı ki, səhərlər tələsdiyim sevdiyim iş yerim var».

Nigar xanımın ən böyük arzusu yer üzündə sülh və əmin-amanlıq, anaların gözlərində sevinc işığı, körpələrin çöhrəsində təbəssüm görməkdir: «Mən heç vaxt Şuşada olmamışam. Ora gedib xarı bülbülə əlimlə toxunmaq, Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələri sırasında görmək, övladlarımı bu torpağa, vətənə bağlı vətəndaş kimi yetişdirmək ən böyük arzularımdır»...

## İnsanın öhdəsindən gələ bilməyəcəyi heç nə yoxdur



**Aytən Zamanova**
*Vergilər Nazirliyi yanında Milligəlirlər departamentinin idarə direktorunun müavini*

Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı İdarəsinin direktor müavini, qeydiyyat şöbəsinin rəisi vəzifələrində çalışıb. Hazırkı vəzifəsinə bu il fevralın 2-də təyin edilib. Əmək fəaliyyətinə vergi işçilərinin peşə bayramı günündə başlayıb: «Universitet illərindən Vergilər Nazirliyinin əməkdaşı olmaq arzusunda idim. Qarşıma qoyduğum məqsədə çatdım və nazirliyin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində böyük hüquqşünas kimi işə başladım».

Onun fikrincə, işgüzar qadın olmaq, şəxsi həyatla işdəki fəaliyyətini uzlaşdırmaq o qədər də asan məsələ deyil. Amma insanın öhdəsindən gələ bilməyəcəyi heç nə yoxdur: «Bunun üçün ən əsası iradəli və mübariz olmaq gərəkdir. Əhəmiyyətli bir nüansı da qeyd etmək istərdim. Azərbaycan qadını tarixən çətinliklərin öhdəsindən gəlməyi bacaran güclü məxluqdur. Mən də bu ənənənin varisi olaraq iş və ailə arasındakı mütənasibliyi qoruyub saxlamaga nail olduguma inanıram».

A.Zamanova üçün arzular bitəndə həyat da bitir. Həyat arzularla zəngin və maraqlıdır: «İnsan istəklərinin, arzularının reallaşacağına nə qədər çox inanıb həmin inamı beynində yaşatmağı bacararsa, arzular da bir o qədər tez çin olur. Mənim «arzu reallaşdırma» düsturum budur və hələ ki, bu günə qədər özünü doğruldub. Bu vaxta qədər ən yadda qalan hədiyyəm isə yeni pianino olub».

## Ən əsası insanın xeyirxah işləri arzulamasıdır



**İradə Məmmədxanlı**
*Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal gəlirlər departamentinin Hüquq idarəsinin direktor müavini*

2011-ci ilin noyabr ayından vergi orqanlarında çalışan İ.Məmmədxanlının sözlərinə görə, vergi sahəsini ona magistr pilləsində təhsil aldığı zaman «Vergi hüququ» fənnindən dərs deyən müəllimi sevdirib: «Hesab edirəm ki, insan çalışdığı işi sevməlidir. Mən kommersiya hüququ sahəsini, xüsusilə rəqəmlərlə işləməyi xoşlayıram. Fikrimcə, iş nə qədər mühüm olsa da, insanın şəxsi həyatı işgüzar həyatından daha vacibdir. Hər birimiz şəxsi həyatımız üçün çalışırıq. Həyatın havaya atılmış beş topdan ibarət bir oyun olduğunu düşünün. Bu topların biri sağlamlığımız, biri ailəmiz, biri şəxsiyyətimiz, biri dostlarımız və bir də işimizdir. «İş topu»muzdan başqa digər toplar şüşədəndir və nə zaman yerə düşsə, sına bilər, bircə iş topumuz rezindəndir və onun sınmaq ehtimalı yoxdur. Bu səbəbdən də digər topları «iş topu»na qurban verməməliyik. Məncə, işə həddindən artıq zaman ayırmaqla həyatımızda daha vacib dəyərlərə ayırmalı olduğumuz zamanı işə xərcləmiş oluruq».

Həyatdan istədiyinizi ala bilmisinizmi sualına müsahibimizin cavabı belədir: «Arzu o qədər geniş və tükənməyən bir hissdir ki, inanmıram kimsə tam olaraq arzularına çatmış olsun. Mən də həmçinin. Məsələnin ən vacib tərəfi, məncə, insanın özünə, gələcəyinə xeyirli olanı arzulamasıdır. Bəzən bunu müəyyən edə bilmirik. Bu səbəbdən də əgər bizim üçün, cəmiyyət üçün xeyirli olmayan arzuya çatmasaq daha yaxşıdır».

İradə xanımın yadında qalan ən maraqlı bayram hədiyyəsi isə oğlunun 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təqdim etdiyi ilk açıqca olub...

## İş otağının xaricində olan həyatı unutmaq olmaz!



**Səbinə Mirzəyeva**
*Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin şöbə rəhbəri*

Vergi orqanlarına 2009-cu ildə gəlib və həyatında Vergilər Nazirliyinin xüsusi yeri olduğunu deyir. Bura ilk iş yeri olduğundan ona doğma və əzizdir. Səbinənin fikrincə, vergi orqanlarında, bir qayda olaraq, məsuliyyətli, məhsuldar, işinə dərindən bələd olan mütəxəssislər işləyir və ölkə büdcəsinin doldurulması, sahibkar fəallığı, investisiya mühiti və iqtisadiyyatın sabitliyi onların diqqətli olmalarından, əzmkarlığından asılıdır: «Fəxr edirəm ki, ölkəmizin vergi orqanlarında çalışıb dövlətimə və xalqıma xidmət edirəm. Vergi orqanı əməkdaşı olaraq rəhbərlik tərəfindən mənə göstərilən etibarı və etimadı yüksək qiymətləndirirəm. Nazirliyimizi xarici ölkələrdə, beynəlxalq tədbirlərdə və seminarlarda təmsil etmək, respublikamızın vergi orqanlarının nailiyyətləri haqqında beynəlxalq səviyyədə fikir formalaşdırmaq üçün mənə imkan yaradılması olduqca qürurvericidir və buna görə minnətdarlığımı çatdırmağı da özümə borc bilirəm».

Müsahibim hesab edir ki, bir qadının iş həyatı nə qədər vacibdirsə, işdən sonrakı həyatı da o qədər önəmli və əhəmiyyətli olmalıdır: «İş və şəxsi həyat arasında tarazlıq yaratmaq işləyən qadınların böyük əksəriyyətinin problemidir. İş son dərəcə vacibdir, amma həyatda iş qədər vacib olan başqa şeylər də var. Müvəffəqiyyətə can atdıqda uğurun arxasında qalan, ofisin xaricində olan həyatı da unutmaq olmaz. Harmoniyaya və xoşbəxtliyə nail olmaq üçün insanın sevimli işi, yanında onu sevən ailəsi və çətin anlarda onu dəstəkləyən, asudə zamanını onunla keçirib istirahət edən sadiq dostları olmalıdır. Bu tarazlığı tapdığıma görə özümü xoşbəxt sayıram. Sevimli iş ilə məşğul olmaq özü də bir xoşbəxtlikdir».

S.Mirzəyeva arzuları irəliyə doğru hərəkət etməyin, inkişafın həyat enerjisi, katalizatoru hesab edir: «Paulo Koelyonun «Kimyagər» romanında çox maraqlı bir aforizm var: «Əgər bir şeyi həqiqətən ürəkdən istəsən bütün kainat köməyinə gələr ki, arzun çin olsun». Təcrübəmə əsasən deyə bilərəm ki, bu, həqiqətən belədir. Mən arzularımın reallığa çevrilməsi üçün mümkün olan bütün səyləri göstərirəm və onlar zaman keçdikcə gerçəyə çevrilir».

Umduğu ən gözəl hədiyyə isə diqqət və qayğıdır...

## Daşıdığım rütbə, tutduğum vəzifə ciddi məsuliyyət tələb edir



**Nərmin Mirzəyeva**
*Vergilər Nazirliyinin İnsan resursları idarəsinin Təhsil və inkişaf şöbəsinin rəhbəri*

2014-cü ildə indi rəhbərlik etdiyi şöbəyə baş mütəxəssis kimi gəlib. Birinci dərəcəli müfəttişdir: «Birincisi, müvafiq sahədə dövlətin məqsəd və funksiyalarını həyata keçirən, ölkə üçün strateji əhəmiyyət daşıyan vergi orqanlarının işində rolumun olduğunu bilmək mənim üçün şərəfdir. İkincisi, daşıdığım xüsusi geyim forması və rütbə, tutduğum vəzifə ciddi məsuliyyətdir. Üçüncüsü, iş təcrübəmə, bilik və bacarıqlarıma, ən əsası isə marağıma uyğun sahədə - insan resurslarının idarə edilməsi sahəsində çalışmaq özümü reallaşdırmaq və fərdi inkişafım üçün bir imkandır. Nəhayət, geniş kollektivdə müxtəlif yaş qruplarına mənsub, fərqli bilik, bacarıq və dünyagörüşünə malik, ayrı-ayrı vəzifə tutan insanlarla bir yerdə işləmək böyük həyat təcrübəsidir».

Nərmin xanım hesab edir ki, şəxsi həyatla karyera arasında tarazlığa nail olmaq hazırda dünyada aktual mövzularından biridir: «Bu sahədə çoxsaylı kitablar yazılır, təlimçilər fəaliyyət göstərir, məşhur praktiklərin mühazirələri təşkil edilir. Etiraf etməliyik ki, dövlət orqanlarında çalışan qadınlar üçün şəxsi həyatla iş həyatı arasında tarazlığı qoruyub saxlamaq elə də asan deyildir. Zaman-zaman bu sahədə çətinliyim olur. Lakin biz işləyən xanımlarda formalaşan planlaşdırma, sistemləşdirmə və dəqiqlik kimi xüsusiyyətlər çox vaxt hər iki sahəni uğurla aparmağa kömək edir. Mən şəxsən bunu gözümü açandan iş xanımı kimi gördüyüm anamın timsalında müşahidə etmişəm»...

Nərmin xanımın hədiyyələrə münasibəti də fərqlidir. Onun üçün ən yaddaqalan hədiyyə yaxınlarının bayram günlərində deyil, adi günlərdə bağışladığı hədiyyələrdir: «Bayram hədiyyəsinə gəldikdə isə... klassikaya üstünlük verirəm: sevdiyim hədiyyə gül dəstəsidir»...

## Vergi orqanında fəaliyyət mənim yaşam tərzimdir



**Zülfiyyə Məmmədova**
*2 saylı Ərazi Vergilər Departamentinin Koordinasiya bölməsinin rəhbəri*

Baş vergi xidməti müşaviri Zülfiyyə xanım işini çox sevir: «Həyatımın əsas hissəsini iş fəaliyyətim təşkil edir. Peşəmi çox sevdiyim və günün əksər hissəsini işdə keçirdiyim üçün vergi orqanında fəaliyyət mənim yaşam tərzim, ikinci evim, həyatımın əsas hissəsidir. Bununla yanaşı, mümkün qədər şəxsi həyatımla, ev qayğıları ilə işim arasında balansı qorumağa çalışıram».

Z.Məmmədova da bütün analar kimi, övladlarının gələcəyi üçün yaşayır, onlardan ötrü gözəl xəyallar qurur: «Yəqin ki, övladlarımın həyatda şəxsiyyət olaraq öz yerlərini tapmasını, xoşbəxt ailə sahibi olmalarını görmək mənim arzularıma çatmağım hesab edilə bilər. Hələ ki, arzularla yaşayıram»...

## İşimin məsuliyyəti mənə həyatda dürüst, prinsipial olmağı öyrədib



**Zərəngiz Əliyeva**
*12 saylı Ərazi Vergilər Departamentinin baş mühasibi*

1990-cı ildə dövlət vergi orqanlarında makinaçı-katibə kimi fəaliyyətə başlayıb. 1993-cü ildə mühasib, 1994-cü ildə isə baş mühasib vəzifəsində fəaliyyət göstərib: «Vergi orqanında çalışmaq çətin olsa da, şərəfli və məsuliyyətlidir. Bu işin mahiyyətində xalqa xidmət durur. İşimin məsuliyyəti mənə həyatda dürüst, prinsipial, loyal olmağı öyrədib.

Bununla da şəxsi həyatımla peşəm arasında ortaq meyar yaratmaqla peşəkarlığın, nəzakətin, insana hörmətin və ümumi dəyərlərə ehtiramın vəhdətinə nail olmuşam».

Zərəngiz xanım hesab edir ki, arzuların reallaşmasında zamanın böyük rolu var: «Quş qanadla uçar, insan diləklə, deyiblər. Arzuların hamısını reallaşdırmaq üçün müəyyən şərait, zaman gərəkdir»...

## İşin öz yeri, şəxsi həyatın da öz yeri...



**Aygün Həsənova**
*Zəngilan rayon Vergilər Şöbəsinin direktor müavini, bölmə rəhbəri*

1990-cı ilin iyul ayında Zəngilan rayon Dövlət Vergi Müfəttişliyinin Vətəndaşların vergiyə cəlb edilməsi şöbəsində böyük dövlət vergi müfəttişi vəzifəsinə təyin olunub. 1994-cü ildən rayon Dövlət Vergi Müfəttişliyinin uçotun təşkili işləri üzrə böyük dövlət vergi müfəttişi, 2000-ci ildən Vergilər Nazirliyinin yaradılması ilə əlaqədar rayon Vergilər şöbəsində uçotun təşkili işləri üzrə böyük dövlət vergi müfəttişi, 2001-ci ildən isə həmin bölmənin rəisi kimi fəaliyyət göstərib. 2006-cı ildən hazırkı vəzifəsindədir.

Vergi orqanında çalışmağı xalqa və dövlətə xidmət kimi qiymətləndirən A.Hüseynovaya görə, tutduğu vəzifəsindən asılı olmayaraq, qadın ilk növbədə anadır. Bu hiss ona ailə ilə işgüzar fəaliyyəti uzlaşdırmağa hər zaman kömək edib. Düşünür ki, dövlət idarəsində çalışan məmurun həyatında işin öz yeri, şəxsi həyatın da öz yeri var: «Bunun hər ikisini mənalı yaşamaq lazımdır. Arzular da insanın yaşadığı həyatdan doğur. İnsan yaşadıqca arzuları da bitmir. Ən böyük arzum düşmən tapdağı altında olan torpaqlarımızı azad görmək, ata-baba yurdlarını məcburi tərk etmiş vətəndaşlarımızın doğma yurdlarına qayıdışlarının şahidi olmaqdır. Doğma yurduma - Zəngilan rayonuna gedə, ömrün qalan bayramlarını orada qarşılaya bilməkdir».

Aygün xanım üçün ən dəyərli hədiyyə isə övladlarından aldığı təbriklərdir: «Təbii ki, hər bir qadın, ana müxtəlif münasibətlərlə yaxınlarından hədiyyələr alır. Ana üçünsə ən böyük hədiyyə övladlarının yaxşı gününü görmək, onlara yaxşı təhsil verməkdir. Bayram səhəri övladlarımın məni təbrik etmələri ən dəyərli hədiyyəmdir».

## Bu şərəfli işdə xalqıma, dövlətimə xidmət göstərirəm



**Sevinc Allahyarova**
*5 saylı Ərazi Vergilər İdarəsində Bəyannamələrin və risklərin təhlili bölməsinin rəhbəri*

Vergi sistemində 1996-cı ildən çalışır: «Vergi orqanı mənim ilk iş yerim olub, burada xidmət etmək həyatımda önəmli yer tutur. Artıq 21 ildir ki, mən bu şərəfli peşədə fəaliyyətimi davam etdirirəm. Bura mənim üçün evim, ailəm qədər doğmadır. Vəzifə məsuliyyəti ilə yanaşı, işimə dayaq olan mühüm amil həm də bu doğmalıqdır. Bu şərəfli işdə xalqıma, dövlətimə xidmət göstərirəm».

S.Allahyarova övladları üçün, onların gələcəyi naminə əlindən gələni etdiyini bildirir: «İki övladım var və çox sevinirəm ki, mənim işim övladlarımın layiqli vətəndaşlar kimi yetişməsinə mane olmur. Mənim üçün taleyin ən qiymətli hədiyyəsi övladımın ali məktəbə daxil olmasıdır»...

# İlk milli naviqasiya sistemi yaradılıb

Əmlak Məsələləri Dövlət Komitəsində ölkənin ilk milli naviqasiya sistemi olan «AzNav»ın təqdimatı keçirilib.

Tədbirdə müasir texnologiyaların tətbiqi ilə hazırlanmış naviqasiya sisteminin canlı rejimdə fəaliyyəti nümayiş etdirilib. Sistem əhalinin, dövlət və özəl qurumların, fiziki və hüquqi şəxslərin, turistlərin, eləcə də ünvan axtarışında maraqlı olan digər tərəflərin istifadəsinə verilib. Təqdimatda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, Daxili İşlər, Fövqəladə Hallar, Mədəniyyət və Turizm, Səhiyyə nazirlikləri, Bakı Şəhər İcra Hakimiyyəti, «Azəravtoyol» ASC, Bakı Nəqliyyat Agentliyi, «BakuBus» MMC, habelə ölkədə fəaliyyət göstərən naviqasiya, yükdaşıma və taksi xidmətlərinin, turizm şirkətlərinin nümayəndələri iştirak ediblər.

Dəqiq və hər zaman yenilənən GPS naviqasiya sistemi «AzNav» Ünvan Reyestri İnformasiya Sisteminin (ÜRİS) məlumatları əsasında hazırlanıb. «AzNav» həm tibbi yardım, yanğın, qəza, polis, fövqəladə hallar kimi təcili xidmətlər, həm də poçt, yükdaşıma, taksi, turizm, nəqliyyatın tənzimlənməsi və digər fəaliyyətlərdə son dərəcə faydalıdır. Naviqasiya sistemindən istifadə etməklə hər bir şəxs və ya qurum istənilən vaxt seçdiyi ünvanı ən sürətli və optimal marşrut üzrə müəyyən edə biləcək. Ünvan axtarışı məsələləri sadələşəcək, lazımi ünvanların axtarışında vaxt itkisinin qarşısı alınacaq.

malikdir. Bu isə ölkəmizə səfər edən turistlərin və əcnəbi vətəndaşların ünvan tapma işini daha da rahatlaşdırır. «AzNav» yeni və köhnə ünvanların əsasında hazırlanmış Naviqasiya Xəritəsinin məlumatlarından istifadə etməklə işləyir».

Qeyd olunub ki, proqram seçilmiş yol ilə hərəkət zamanı yolda nəqliyyat vasitəsinin maksimal sürətini, yol üzərində olan radarları, döngə nöqtələrini, parkinqləri, yanacaqdoldurma məntəqələrini, digər xidmət, ictimai iaşə obyektləri, yol keçidləri və tıxacları da bildirir: «Nəqliyyat vasitəsi hərəkətə başladıqdan sonra istifadəçi gedəcəyi yerə nə zaman çatacağı barədə məlumatı əvvəlcədən öyrənir. Hərəkət zamanı marşrut üzərində olan hadisələr barədə məlumatları naviqasiya proqramındakı funksiya vasitəsilə sistemin Çağrı Mərkəzinə göndərə bilir. Yolda baş vermiş hadisə haqda məlumat Çağrı Mərkəzinə bir kliklə ötürülür. «GPS» vasitəsilə cari ünvan avtomatik təyin oluna bilər. Təyinat məntəqəsinə qədər sürətli/qısa marşrutun hesablanması və marşrutdan yayınma halında marşrutun yenidən bərpası mümkündür. Proqramda yol trafik vəziyyəti xəritə üzərində rənglərlə vizualizasiya olunur, yol hadisələri ikonlarla göstərilir. Marşrut zamanı səsli (Azərbaycan, rus, ingilis və digər dillərdə) və görüntülü müşayiət mümkündür, radar və bəzi yol nişanları haqda bildirişlər ekrana çıxır. Proqramda sürətə nəzarət sistemi, marşrutun hesablanması üçün rejimin seçilməsi imkanları mövcuddur. Xəritənin 3 ölçülü (3D) gecə və gündüz rejimdə əks olunması binaların və istinadların da 3D göstərilməsini (seçimə görə) mümkün edir.

**Naviqasiya sistemi Azərbaycan Respublikasının bütün ərazisini əhatə etməklə, paytaxt və regionlar üzrə ünvan axtarışı, tapılması, qısa zamanda və qısa marşrutla bir ünvandan digər ünvana bütün alternativ yolları göstərmək imkanlarına malikdir**

Komitənin İctimaiyyətlə əlaqələr və protokol şöbəsinin müdiri Qulu Xəlilovun sözlərinə görə, naviqasiya sistemi Azərbaycan Respublikasının bütün ərazisini əhatə etməklə, paytaxt və regionlar üzrə ünvan axtarışı, tapılması, qısa zamanda və qısa marşrutla bir ünvandan digər ünvana bütün alternativ yolları göstərmək imkanlarına malikdir: «Üstün cəhətlərdən biri də «AzNav»ın həm onlayn, həm də oflayn rejimdə işləmək imkanlarına malik olmasıdır. Sistem Android, iOS (Apple), Windows CE əməliyyat sistemlərində olan bütün növ mobil cihazlarda və eyni zamanda telefon və planşetlərdə çalışır. Android əməliyyat sistemli mobil qurğulara (telefon, planşet və s.) proqramı yükləmək üçün Play Market-ə daxil olub, AzNav yazaraq axtarış vermək və yükləyib istifadə etmək mümkündür. İOS (Apple istehsalı) əməliyyat sistemli mobil qurğular (telefon, planşet və s.) üçün isə proqramı App Store-dan yükləmək mümkündür.

Digər özəllik odur ki, «AzNav» Azərbaycan dili ilə yanaşı, rus, ingilis, ərəb, alman, ispan, fransız, italyan, türk və gürcü dillərini də dəstəkləyir və sadalanan dillərdə interfeysə

Milli naviqasiya sisteminin digər üstünlüyü həm yeni, həm də köhnə ünvan konsepsiyası əsasında çalışmasıdır. Yəni ünvana görə axtarış həm «giriş (binanın bloku) nömrələrinə»(yeni konsepsiya), həm də «bina nömrələrinə»(əvvəlki konsepsiya) görə həyata keçirilə bilər. Digər axtarış funksiyaları da mövcuddur ki, bunlar obyektə (POİ) görə, koordinata görə, yol kəsişmələrinə görə naviqasiya seçimləridir. Tapılmış obyektlərin (POİ) tipinə görə göstərilməsi mümkündür. Axtarış sətrinə yarımçıq və ya hərf səhvləri ilə daxil edilən mətnə görə nəzərdə tutula biləcək nəticələr ekranda göstərilir. Bir dəfə seçilən ünvanlar, obyektlər və marşrutlar avtomatik proqramın yaddaşında saxlanılır. Eyni zamanda, proqramda odometr funksiyası da aktivdir. «Evə apar» funksiyası isə cari məntəqədən «ev» kimi yaddaşda qeyd edilmiş məntəqəyə qədər marşrutun hesablanmasına imkan verir.

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

| MART | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | **19** |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | **26** |
| **27** | 28 | 29 | 30 | **31** | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

27 mart - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

31 mart - «1», «2» və «5».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi:** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi:** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Avtonəqliyyat vasitələri üzrə sadələşdirilmiş vergi

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir və onların mülkiyyətində və ya istifadəsində olan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş verginin vergitutma obyekti hesab olunur.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin şöbə rəhbəri Əvəz Quliyevin şərhinə görə, yük və sərnişin daşınmasının növündən və həyata keçirildiyi ərazidən asılı olaraq, sərnişin və yük daşıyan vergi ödəyiciləri üçün sadələşdirilmiş vergi daşınma növünə uyğun olaraq sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidinə müvafiq olaraq müəyyən edilmiş sadələşdirilmiş verginin aylıq məbləği (manatla) və daşınmanın həyata keçirildiyi ərazidən asılı olaraq Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında - 2,0, Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Məcəllənin 220.6.1-ci maddəsində göstərilənlər istisna olmaqla) - 1,5, digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında (Məcəllənin 220.6.1-ci və 220.6.2-ci maddələrində göstərilənlər istisna olmaqla) - 1,0 əmsallar tətbiq edilməklə müəyyən edilir.

Avtomobil nəqliyyatı vasitələrində (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsinə əsasən müəyyən edilir. Avtomobil nəqliyyatı vasitələrindəki (taksi istisna olmaqla) oturacaq yerlərinin sayı və ya yükgötürmə qabiliyyəti avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsində göstərilmədikdə, həmin göstəricilər Daxili İşlər Nazirliyi tərəfindən vergi orqanlarına verilmiş arayışlar əsasında müəyyən edilir. Oturacaq yerlərinin sayını avtomobil nəqliyyatı vasitələrinin qeydiyyat şəhadətnaməsi və ya Daxili İşlər Nazirliyi tərəfindən verilmiş arayışlar əsasında müəyyən etmək mümkün olmadıqda, sadələşdirilmiş verginin məbləği yerlərin faktiki sayına görə müəyyən edilir.

**Taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi və taksi minik avtomobillərinə «Fərqlənmə nişanı»nın verilməsi xidmətləri «ASAN xidmət» mərkəzlərinə həvalə olunub**

Avtomobil nəqliyyatı vasitəsilə sərnişin və yük daşımalarına görə aylıq sadələşdirilmiş vergi hər bir avtonəqliyyat vasitəsi üçün yuxarıda göstərilmiş sadələşdirilmiş verginin ölçü vahidini verginin aylıq məbləğinə və daşımanın həyata keçirildiyi ərazidən asılı olaraq müəyyən edilmiş əmsala vurmaqla hesablanır və dövlət büdcəsinə ödənilir: «Vergisini hesabladıqdan sonra sahibkar vergi məbləğini banka ödəyir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir. Sonra sahibkar ərizə ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müraciət edir və öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» alır. «Fərqlənmə nişanı»nı almaq üçün vergi ödəyicisi tərəfindən ərizə; avtonəqliyyat vasitəsinin dövlət qeydiyyatı şəhadətnaməsinin, vəkalətnamənin (etibarnamənin) və ya icarə müqaviləsinin surəti; verginin ödənilməsini təsdiq edən bank ödəniş sənədinin surəti və avtonəqliyyat vasitələrinin siyahısından ibarət sənədlər təqdim edilməlidir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bununla bağlı ərizə daxil olduğu tarixdən 2 gün ərzində ya «Fərqlənmə nişanı»nı və ya «Fərqlənmə nişanı»nı verməkdən imtina edərsə, imtinanın səbəblərini göstərməklə yazılı məlumat verməlidir.

Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2015-ci il fərmanına əsasən, taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi və taksi minik avtomobillərinə «Fərqlənmə nişanı»nın verilməsi xidmətləri «ASAN xidmət» mərkəzlərinə həvalə olunub. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicilərinə «Xüsusi fərqlənmə nişanı» Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma həyata keçirdikdə isə Bakı Nəqliyyat Agentliyi tərəfindən verilir».

Avtonəqliyyat xidməti göstərən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir. Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə, həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

Sadələşdirilmiş verginin ödənilməsinə avtonəqliyyat vasitəsinin sahibi, nəqliyyat vasitəsi vəkalətnamə (etibarnamə) və ya digər əşya hüququna dair icarə müqaviləsi əsasında istifadə edildikdə isə vəkalətnamə (etibarnamə) və ya VM 221.43-cü maddəsinə edilmiş dəyişikliyə əsasən icarə müqaviləsi ilə idarə edən şəxslər məsuliyyət daşıyır. Hüquqi şəxs özünə məxsus avtomobil nəqliyyatı vasitələri ilə daşımaları həyata keçirdikdə sadələşdirilmiş vergi onun tərəfindən ödənilməlidir. Fəaliyyəti yalnız avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarından ibarət olan vergi ödəyiciləri vergi orqanlarına bəyannamə vermirlər. Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərinin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün heç bir haqq ödənilmədən «Xüsusi fərqlənmə nişanı» alınır.

**F.İKRAMQIZI**


## Azərbaycan Respublikasının Vergilər Nazirliyi ərazi vergi orqanlarında və rayon vergilər şöbələrində vakant vəzifələrə işə qəbul üzrə müsabiqə

## ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka, bir qayda olaraq, iqtisadiyyat və idarəetmə, hüquqşünaslıq ixtisas istiqamətlərinə uyğun ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən edilmiş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar müsabiqədə iştiraka buraxılmırlar.

Müsabiqəyə sənəd qəbulu elektron ərizə vasitəsilə 27.02.2017-ci il saat 10:00-dan 12.03.2017-ci il saat 24:00-dək həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. **Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın surəti və ali təhsil haqqında diplomun surəti mütləq qaydada elektron fayl şəklində əlavə olunmalıdır.** Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanı vasitəsilə məlumat verilir. Ərizə sistemə daxil olunduqdan beş gün ərzində onun müsabiqədə iştirak üçün qəbul edilib-edilməməsi müvafiq işçi qrup tərəfindən yoxlanılır, ərizə qəbul edilərsə vətəndaşa iş nömrəsi və imtahana buraxılış vərəqəsinin götürülmə tarixi, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat göndərilir.

Vətəndaşlar elektron ərizə formasını doldurmaqda çətinlik çəkdikdə və ya bu zaman hər hansı texniki problemlə rastlaşdıqda, habelə ərizə ilə müraciət etdikləri müddətdən beş gün keçdiyinə baxmayaraq onların elektron poçt ünvanına nazirlik tərəfindən heç bir məlumat göndərilmədikdə 012-403-81-35 və 012-403-88-04 nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sənədləri qəbul edilən namizədlər 12.04.2017-ci il tarixdən 14.04.2017-ci il tarixdə saat 18:00-dək imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 15.04.2017-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı 27.02.2017-ci il tarixdə Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

**DİQQƏT!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan vətəndaşlara müsahibə mərhələsində üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.
Müsabiqədə uğur qazanan vətəndaşlara ərazi vergi orqanlarında və ya rayon vergilər şöbələrində olan vakant vəzifələr üzrə iş təklif ediləcəkdir. Göstərilən təklifdən imtina edən şəxslər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

beynəlxalq panoram

# Proqressiv vergi dərəcəsinin tətbiqi müzakirə edilir

Çexiyanın Baş naziri Boquslav Sobotka bildirmişdir ki, builki parlament seçkilərində onun təmsil etdiyi partiya qalib gələcəyi təqdirdə, korporativ və gəlir vergilərinin proqressiv dərəcələrinin tətbiqi nəzərdə tutulur.

Beləliklə, sosial demokratlar kiçik biznes, eləcə də əhalinin böyük əksəriyyəti üçün vergi yükünü azaltmağı planlaşdırırlar. Hazırda gəlir vergisi hamı üçün eynidir və 15% təşkil edir. İllik gəliri orta gəlir göstəricisindən 48 dəfə və daha çox olan şəxslər üçün əlavə 7%-lik vergi qoyulması da gözlənir.

Çexiyanın Sosial Demokratlar Partiyası proqressiv vergini aşağıdakı qaydada tətbiq etməyi təklif edir: gəlirləri 30 min krondan (1,17 min ABŞ dolları) artıq olan şəxslər üçün 12%; gəlirləri 30-40 min kron (1,17 min-1,56 min dollar) olan şəxlər üçün 15%; gəlirləri 40-50 min kron (1,56 min-1,95 min dollar) olan şəxslər üçün 25%; gəlirləri 50 min krondan (1,95 min dollar) artıq olan şəxslər üçün isə 32%.

Korporativ vergilərlə bağlı aşağıda göstərilən proqressiv sistemin tətbiqi təklif olunur: illik gəlirləri 5 milyon kron (0,2 milyon dollar) olan şirkətlər üçün 15%; illik gəliri 5 milyon krondan 100 milyon krona (3,92 milyon dollar) qədər olanlar üçün 19%; illik gəlirləri 100 milyon krondan artıq olan şirkətlər üçün isə 24%.

Ən yüksək vergi dərəcəsi cəmi 600 iri şirkətə şamil ediləcək. Xatırladaq ki, bundan əvvəl Çexiyanın Baş naziri bank vergisinin tətbiq olunmasını təklif etmişdi.

# Böyük Britaniyada avtomobillər üçün aksiz dərəcəsi artırılır



HonestJohn.co.uk saytının son araşdırmalarına əsasən, bu il aprelin 1-dən Britaniyada avtomobillər üçün tətbiq olunan aksiz dərəcələrinin artırılması qənaətli və ekoloji baxımdan əlverişli «yaşıl» maşınların orta hesabla təxminən 500 funt sterlinq bahalaşmasına gətirib çıxaracaq və bu addımın atılmasından qazanan isə havanı çirkləndirən maşınların sahibləri olacaq.

Aprelin 1-dən istifadəsinin birinci ili başa çatmış bütün avtomobillərə 140 funt sterlinq məbləğində sabit aksiz tətbiq olunacaq. Yol vergisi sisteminə üç yeni dərəcə əlavə ediləcək - sıfır, standart və premium; bundan əlavə, qiyməti 40 min funt sterlinqdən baha olan elektrik avtomobillərinə görə də əlavə ödəniş etmək lazım gələcək. Bu o deməkdir ki, aprelin 1-dən sonra alınmış və atmosferə karbon tullantısının səviyyəsi 99 qram/kilometr olan maşınların sahiblərinin avtomobil üçün aksiz ödəmələri ekoloji baxımdan təmiz və yanacağa qənaət edən bir sıra minik maşınlarının istismar xərclərinin 540 funt sterlinq artımı ilə nəticələnəcək. Hətta hibrid avtomobillər belə yeni yol vergisindən azad edilmirlər - «Toyota Prius» sahibləri 405, «Tesla Model S» sahibləri isə bundan xeyli çox - 930 funt sterlinq əlavə vergi ödəməli olacaqlar.

Qeyd edək ki, avtomobillər üçün aksiz yığımının yeni sisteminin tətbiqi Böyük Britaniyada ən çox satılan «Ford Fiesta 1.0 EcoBoost 100PS» avtomobilinin qiymətində 540 funt sterlinq artım yaradacaq, «V8 Mustang» avtomobilinin qiyməti isə 295 funt sterlinq məbləğində bahalaşacaq. Bu zaman Amerika markasının qənaətlə işləyən «Fiesta» ilə müqayisədə havanı üçqat artıq çirkləndirməsi nəzərə alınmayacaq.

# Çikaqoda da «torba vergisi» tutulur

Kanadanın sənayeçiləri və ixracatçıları vergi islahatları tələb edirlər. Sənayeçilər və İxracatçılar Assosiasiyası hökuməti istehsalın artımına yardım edəcək vergi islahatları aparmağa çağırmışdır. Assosiasiya sənaye istehsalının həcminin iki dəfə artırılmasını nəzərdə tutan «İstehsal 230» biznes təşəbbüsü çərçivəsində beş hesabatdan birincisini nəşr etmişdir. Hesabat Kanadanın 55 istehsalat kollektivində aparılmış sorğulara, eləcə də zavod və fabriklərin nümayəndələrindən alınmış 550 rəy və təklifə əsaslanır.

Hesabatda ABŞ-dakı vəziyyətlə paralellər gətirilirək göstərilir: «Vətəndaşların gəlirlərindən tutulan vergilər artır, karbon tullantılarına qoyulmuş vergilərin və digər yığımların, eləcə də ayrı-ayrı əyalətlərdə korporativ verginin dərəcəsi yüksəldilir. ABŞ-da milli biznesin vergi yükünü azaltmaqla hökumət korporativ verginin dərəcəsini aşağı salmaq niyyətindədir. ABŞ-da karbon tullantılarından vergi tutmamaq barədə də qərar qəbul edilmişdir».

Sənayeçilər və ixracatçılar sənədin yekununda hökuməti hazırkı vəziyyətin ölkədən yalnız verginin dərəcəsini aşağı salmaq məqsədilə deyil, həm də ABŞ-la rəqabətə davam gətirmək məqsədilə vergi islahatı aparmağı tələb etdiyini nəzərə almaqla dünya bazarında Kanadanın nüfuzunun qayğısına qalmağa çağırmışdır.

Amerika Birləşmiş Ştatlarında vergi sahəsində ədalətli islahatların tərəfdarı olan RATE koalisiyasını təsis etmiş şirkətlər və biznes assosiasiyaları yeni media kampaniyasına start vermişlər. Kampaniyanın şüarı belədir: «Əsl vergi islahatı tariflərdən başlayır». RATE koalisiyasında 33 şirkət və assosiasiya birləşir ki, onlar da ABŞ-ın bütün ştatlarını təmsil edən 30 milyondan artıq əməkdaşın maraqlarından çıxış edirlər. Bu qurum ABŞ-da əsas vergilərdən biri olan korporativ vergi dərəcəsinin əsaslı şəkildə aşağı salınmasına təkan vermək məqsədi daşıyan vergi islahatı təklifini irəli sürmək üçün təşkil edilmişdir.

Hazırda ABŞ-da vergi islahatı barədə söhbətlər idxal mallarına yeni rüsum tətbiq edilməsi kontekstində aparılır. Yeni media kampaniyası isə korporativ verginin dərəcəsinin bütün dünyada rəqabətli həddə endirilməsinə və Amerika şirkətlərini istehsalı ABŞ sərhədlərindən kənara çıxarmağa məcbur etməyən dərəcə müəyyənləşdirilməsinə yönəldilmişdir.

# Norveçdə təmiz nəqliyyat vasitələrindən istifadə stimullaşdırılır

Hökumət 2025-ci ilə qədər benzin və dizellə işləyən avtomobillərdən mərhələlərlə imtina etmək hədəfini qarşıya qoymuşdur. Buna nail olmaq üçün isə ölkə vətəndaşlarından ətraf mühitin çirkləndirilməsinə görə daha böyük məbləğdə vergi tutmaq planlaşdırılır.

Hökumətin hədəfi düzgün siyasət yürütməklə ölkədəki bütün nəqliyyat vasitələrinin az və ya sıfır tullantı ilə işləyən növlərinə keçməkdir. Norveçdə «yaşıl vergilərin» tətbiq olunması, məmurların rəyinə əsasən, vətəndaşları təmiz nəqliyyat vasitəsi seçiminə təşviq edəcək. Bu prosesdə benzin və dizellə işləyən avtomobillər üçün heç bir qadağa qoyulması nəzərdə tutulmur. Qeyd edək ki, Norveçdə artıq elektromobillər vergilərdən azad edilmişdir. Bundan əlavə, onlara avtobus xətlərində hərəkət etməyə, eləcə də bərələrdə daşınmağa icazə verilir. Benzin və dizel yanacağı ilə işləyən avtomobil sahibləri isə bunun əksinə, atmosferə buraxılan karbon qazının həcmindən asılı olaraq böyük məbləğdə «tullantı vergisi» ödəməli olacaqlar.

## Xəbər lenti

**Almaniya** vergi daxilolmalarının əhəmiyyətli şəkildə artması sayəsində 1990-cı ildən bəri büdcədə ən böyük profisit əldə olunduğunu bəyan etmişdir. Rəsmi statistikaya əsasən, gəlir və əmlak vergisindən əldə olunan gəlirlər 2015-ci illə müqayisədə keçən il 6,5% artmışdır. Bununla yanaşı, məşğulluq səviyyəsinin yüksək olması da sosial təminat haqları üzrə vergi daxilolmalarının 4,6% artmasına şərait yaratmışdır. Büdcənin profisiti isə iqtisadi istehsalın 0,8%-i qədər olmuşdur.

**Amerika**da xüsusi texnika istehsalı ilə məşğul olan «Caterpillar» korporasiyasının vergidən yayınmasına dair iddia irəli sürülmüşdür. Güc strukturları korporasiyanı ABŞ-da vergi ödəməmək üçün milyardlarla dollar vəsaiti xarici ölkələrə köçürməkdə ittiham edirlər.

**Avstraliya**nın federal hökuməti tibbi ekspertlərin piylənməyə qarşı mübarizə tədbiri olaraq tərkibində şəkər olan ərzaq məhsullarına əlavə vergi qoyulması təklifini rədd etmişdir.

**Bermud** adalarının Maliyyə Nazirliyindən bidirilmişdir ki, maliyyə xidmətləri üçün yeni vergi tutulması barədə qanun 2017-ci ilin aprelindən qüvvəyə minəcək. Bu vergi, banklar, yerli sığorta şirkətləri və digər maliyyə qurumlarına aid olacaq.

**Avrasiya İqtisadi Birliyi**nin iqtisadiyyat komissiyası Belarus və Qırğızıstan dövlətlərinin kənd təsərrüfatı və balıq məhsullarının bir sıra növlərindən tutulan əlavə dəyər vergisinin dərəcəsini dəyişdirəcəyi barədə məlumat yaymışdır. Məqsəd mal və xidmətlərin birlik daxilindəki sərbəst hərəkətinə əngəl olan maneələri aradan qaldırmaqdır.

**OECD** illik hesabatında Hindistana hazırda qüvvədə olan əmlak vergisi sistemini ləğv etməyi məsləhət görmüşdür. Bu sistemə əsasən, vergi ödəyiciləri vergiyə cəlb olunmayan gəlirlərini maksimallaşdıra bilirlər.

**Avstraliya və Sinqapur** dövlətləri CRS-yə - hesabatın vahid standartına əsaslanan vergi məlumatlarının mübadiləsinin təfərrüatlarına dair ümumi razılığa gəlmişlər.

# Səudiyyə Ərəbistanı pul köçürmələrindən vergi tutmayacaq

Hökumət tərəfindən bildirilmişdir ki, əcnəbi vətəndaşların pul köçürmələrindən 6%-lik vergi tutulması planlaşdırılmır. Maliyyə naziri öz tvitter səhifəsində qeyd etmişdir ki, «ölkəmiz dünyada baş verən təmayüllərə uyğun olaraq kapitalın sərbəst hərəkəti prinsipinə əməl etməyi arzulayır». Bu məlumat yerli kütləvi informasiya vasitələrində pul köçürmələrindən vergi tutulacağı barədə müzakirələrə cavab olaraq verilmişdir.

Yeri gəlmişkən, bu yaxınlarda Səudiyyə Ərəbistanında vizaların tərtib edilməsi bahalaşdırılmış, eləcə də bir sıra bələdiyyə vergiləri artırılmışdır. İlin ikinci yarısından isə ölkə vətəndaşları ilə müqayisədə əcnəbi işçilərin daha çox çalışdığı şirkətlərdən tutulan vergilərə yenidən baxılacaq. Bundan əlavə, hökumət tərkibində şəkər olan qazlı içkilərə 50%-lik, tütün məhsullarına isə 100%-lik aksiz tətbiq etməyə başlamışdır. Hesablamalara görə, bu tədbirlərin görülməsi ölkə büdcəsinə bu il 11 milyard, 2020-ci ilədək isə hər il 35 milyard dollardan artıq vəsait gətirəcək.

## krossvord



**Yuxarıdan aşağı:**
1.RF-nin Orenburq vilayətində çay; 2.«İtkin gəlin» filmində (1994) Əbdül obrazını canlandıran aktyorun adı; 3.Bütün vəziyyətlərdə dəyişməyən, həqiqətin pozulmazlığı üçün qəbul edilmiş müddəa, anlayış; 4.Qədim fransız xalq rəqsi; 5.Tanrının mövcudluğunu və kainatın onun tərəfindən yaradıldığını etiraf edən, lakin Tanrının insanlara və təbiətə müdaxiləsini, dinlərin Tanrı tərəfindən yaradılmasını inkar edən təlim; 6.Respublikamızda strateji əhəmiyyətli ASC-nin adı; 9.Azərbaycan dilində bəzi alınma sözlərdə işlədilən, latınca «su» mənası daşıyan hissə; 13.Türkcə ana; 15.Sənədin, qərarın və ya fəaliyyətin mümkün bir neçə formasından biri. Həmçinin hansısa sözün, cümlənin formalarından biri; 16.İspaniyada liman və şəhər. Həmçinin eyniadlı desert şərabı; 17.Lerik rayonunda kənd; 18.Rusiya Federasiyasının Kemerevo vilayətində şəhər; 20.Qiymətin, tarifin, ödəniş məbləğinin dəqiq müəyyənləşmiş və yaxud müəyyənləşdirilmiş səviyyəsi; 21.Fransanın qərbində tarixi ərazi.

**Soldan sağa:**
1.Sovet dövründə ən populyar ticarət mərkəzləri; 5.Rəqəm *(rusca)*; 7.10-cu əsrdə Yaponiyada yaranan əlifba; 8.Paytaxtımızın Xəzər rayonunda qəsəbə; 10.Çiçəkli bitkilərin inkişafında əsas rol oynayan müstəqil çoxalma orqanı; 11.Arktik bölgədəki dörd ölkəyə yayılmış xalq; 12.Öz həcmi, diapazon böyüklüyü, imkanları və tembr rəngarəngliyinə görə seçilən klavişli-nəfəsli musiqi aləti; 14.Yağda qovurulmuş un və doşabdan, bəzən də baldan, şəkərdən bişirilən Şərq şirniyyatı; 19.Altay diyarında dağ silsiləsi; 21.RF-də çay; 22.Arxitektura elementi; 23.Şəki rayonunda istehkam tipli qala; 24.H.Cavidin dram əsərlərindən biri; 25.Qatarı müşayiət edən, onun təhlükəsizliyinə və düzgün hərəkətinə, yüklərin qorunmasına nəzarət edən dəmiryol işçisi.



Şəki rayonunda istehkam tipli qala.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Magiya; 2.Seliqer; 3.Ofset; 4.Oçakov; 5.Persi; 6.İndeks; 9.Zebu; 13.Qulu *(Əsgərov)*; 15.Ammonal; 16.Füzuli; 17.Eqoist; 18.Fikrət *(Əmirov)*; 20.Bradi; 21.Ştamp. **Soldan sağa:** 1.Mastodont; 5.Psi; 7.Gülüstan; 8.«Trud»; 10.Yaqut; 11.Obelisk; 12.Praqa; 14.«Muğan»; 19.Üçbulaq; 21.Şəmsi *(Bədəlbəyli)*; 22.Ucar; 23.Dizayner; 24.İsi; 25.Avtopilot.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# AzVİF-in vitse-prezidenti Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü seçilib




Brüsseldə Avropa Velosipedçilər Birliyinin (UEC) Baş Assambleyası işini başa çatdırıb. Quruma üzv olan 50 milli federasiyanın nümayəndələrinin iştirak etdikləri tədbirdə qitənin ali velosiped qurumunun rəhbər orqanlarına seçkilər keçirilib.

Azərbaycan Velosiped İdmanı Federasiyasından (AzVİF) verilən məlumata görə, seçkilərdən əvvəl qurumun son dörd ildəki fəaliyyəti haqda məruzə ilə çıxış edən UEC-in prezidenti David Lappartien şose velosipedinin elit kateqoriyasında qitə çempionatının keçirilməsini ən vacib addımlardan biri kimi dəyərləndirib. O, «Bakı-2015» ilk Avropa Oyunlarının velosiped yarışlarının bu istiqamətdə həlledici rol oynadığını xüsusi vurğulayıb və bunu Azərbaycanın qitə velosipedinə töhfəsi kimi dəyərləndirib.

Fransa Velosiped Federasiyasının prezidenti David Lappartienin Assambleya üzvlərinin dəstəyini alaraq növbəti dörd il üçün Avropa Velosipedçilər Birliyinin prezidenti seçilməsindən sonra əsas diqqət UEC-in Rəhbər Komitəsinin üzvlərinin müəyyən edilməsinə yönəldilib. Altı nəfərdən ibarət Rəhbər Komitəyə seçilmək üçün 12 nəfərin namizədliyi irəli sürülüb. Onların arasında Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov da olub. Səsvermənin nəticələrinə əsasən, Rəhbər Komitəyə AzVİF-in vitse-prezidenti Sahib Ələkbərovdan başqa Almaniyanın, Polşanın, Rusiyanın, Danimarkanın və İsveçrənin velosiped federasiyalarının rəhbərləri də seçilib.

Son illər Azərbaycanda dövlət qayğısı hesabına velosiped idmanının inkişafı istiqamətində atılan addımlar, nüfuzlu «Tour d'Azerbaidjan» veloyürüşünün təşkili, 2018-ci ildə ölkəmizin BMX velosiped növü üzrə dünya çempionatına ev sahibliyi hüququnu qazanması, «Synergy Baku» komandasının 2016-cı ili dünyanın 176 kontinental klubu arasında reytinq sıralamasında dördüncü yerdə başa vurması bu seçimdə önəmli rol oynayıb. UEC-in Rəhbər Komitəsi, biri qurumun prezidenti olmaqla, 7 nəfərdən ibarətdir və qitədə velosiped idmanı ilə bağlı bütün mühüm qərarları qəbul edən səlahiyyətli orqandır.

Baş Assambleya zamanı AzVİF-in baş katibi Fərhad Əliyevə də etimad göstərilib. O, Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) bu ilin sentyabrında keçiriləcək konqresində UEC-i təmsil edəcək 15 səlahiyyətli nümayəndədən biri olub. Səlahiyyətli nümayəndə üçün 50 milli federasiyadan 26 nəfər namizədliyini irəli sürüb. F.Əliyev səlahiyyətli nümayəndə kimi UCI-nin prezidenti və Rəhbər Komitənin üzvlüyünə keçiriləcək səsvermə prosesində UEC-i təmsil edəcək.

# Güləşçilərimiz beynəlxalq turnirlərdə

Kiyevdə Ukraynanın görkəmli güləşçi və məşqçilərinin xatirəsinə həsr olunmuş sərbəst, yunan-Roma və qadın güləşi üzrə XXI beynəlxalq turnir başa çatıb. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, turnirdə sərbəst və qadın güləşi üzrə yığma komandamızın üzvləri iştirak ediblər.

Güləşçilərimiz ilk yarış gününü 1 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurublar. Qızıl medalı Tatyana Omelçenko (60 kq), gümüş medalı Türkan Nəsirova (48 kq), bürünc medalları isə Gitinomaqomed Hacıyev və Məhəmməd Müslümov (hər ikisi 65 kq) qazanıblar.

İkinci yarış günündə sərbəst güləş üzrə 61, 70, 86 və 125, qadın güləşi üzrə 53, 58, 63 və 75 kiloqram çəki dərəcələrində idmançılar mübarizə aparıblar. Güləşçilərimiz günü 2 qızıl, 1 gümüş və 2 bürünc medalla başa vurublar. Sərbəst güləş üzrə kişilərin yarışında 61 kiloqram çəkidə mübarizə aparan Əhmədnəbi Qvarzatilov ardıcıl olaraq Bolqarıstan, Belarus və İrandan olan rəqiblərini üstələyib və finala yüksəlib. Finalda Ukrayna idmançısı Vasil Şuptarı təmiz qələbə ilə üstələyən güləşçimiz turnirin qızıl medalını qazanıb. 86 kiloqram çəki dərəcəsində yarışan Hacımurad Məhəmmədsəidov mübarizəyə 1/16 final mərhələsindən başlayıb və ardıcıl olaraq Ukrayna, Macarıstan, Belarus və yarımfinalda daha bir Ukrayna güləşçisini məğlub edib. Finalda İran idmançısı Mostafa Giasi Çekan üzərində qələbə qazanan təmsilçimiz turnirin qızıl medalına sahib olub.

Qadın güləşi yarışlarında 63 kiloqram çəkidə mübarizə aparan Elmira Qəmbərova ABŞ, Almaniya və Ukraynadan olan rəqiblərindən üstün olub və adını finala yazdırıb. Final görüşündə güləşçimiz Dünya və Avropa çempionu Yuliya Tkaça minimal hesabla uduzaraq gümüş medalla kifayətlənib. Anjela Doroqan (53 kq) və İrina Netreba (58 kq) isə bürünc medal uğrunda həlledici görüşə çıxıblar. Müvafiq olaraq Almaniya və Ukraynadan olan idmançıları məğlub edən təmsilçilərimiz turnirin bürünc medalına sahib olublar.

Yunan-Roma güləşçilərimiz isə İstanbulda Vehbi Emre və Hamit Kaplanın xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə iştirak ediblər. Turnirin ilk yarış günündə Murad Məmmədov (59 kq) bürünc medal qazanıb. Növbəti gündə 85 kiloqram çəki dərəcəsində mübarizə aparan İslam Abbasov finaladək bütün rəqiblərindən üstün olub. Son görüşdə rəqibinə uduzan güləşçimiz turnirin gümüş medalına yiyələnib. Bürünc medalı isə yığmamıza Həsən Əliyev (75 kq) qazandırıb.




mozaika

texnologiya

## Nitqin tanınması imkanları genişlənir




ABŞ-ın Massaçusets Texnologiya İnstitutunun alimləri nitqin avtomatik tanınması üçün yüksək keyfiyyətli çip hazırlayıblar. «Amazon» şirkətinin «Echo», «Google»un «Home» və «Apple»ın «Siri» səs köməkçiləri sayəsində elektron qurğularla «ünsiyyət» yaratmaq mümkündür.

Alimlərin hazırladıqları yeni çip müasir smartfonlarda nitqin tanınması üçün istifadə olunan tipik həllərlə müqayisədə enerjiyə 90 faizdən çox qənaət edəcək. Məsələn, «iPhone» smartfonlarında «Siri» səs köməkçisi ilə ünsiyyət qurmaq üçün tətbiq edilmiş qurğu bir vatt həcmində enerji sərf edir. Yeni çip isə müvafiq işin yerinə yetirilməsinə 0,2-10 millivatt enerji sərf edəcək. Çipi enerjini az miqdarda istehlak etməklə adi tənzimləyicilərə və digər qurğulara yerləşdirmək mümkündür. Bu da «əşyaların interneti» texnologiyalarının inkişafına güclü təkan verəcək.

sağlam həyat tərzi

## Elə bir xəstəlik yoxdur ki...



Kəskin yandırıcı dadı və özünəməxsus iyi olan sarımsaqdan çox qədim zamanlardan bəri Şərq təbabətində bir sıra xəstəliklərə qarşı dərman vasitəsi kimi istifadə olunur.

Azərbaycan Tibb Universitetinin (ATU) əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının dosenti, tibb elmləri namizədi Sərxan Tağıyevin sözlərinə görə, müalicəvi əhəmiyyətinə görə sarımsaq bütün tərəvəzlərin şahıdır: «Elə bir xəstəlik yoxdur ki, orada sarımsaq öz müsbət təsirini göstərməsin. Misal üçün: bu bitki ateroskle-rozun inkişafının, qaraciyərin piylənməsinin qarşısını alır, xolesterin mübadiləsini gücləndirir, fitonsid effekti göstərir. Bundan əlavə, dəri, ürək, ginekoloji xəstəliklərdə də sarımsaq çox gözəl effekt verir. Burada, əlbəttə ki, bəzi xəstəliklər istisna edilir, misal üçün, mədə yarası. Sarımsaq əsasən qurd xəstəliyi zamanı qurdlara qarşı göstərdiyi öldürücü təsirə görə bütöv udulur. Dəri xəstəlikləri dedikdə, ekzema və ya yanıqları misal çəkmək olar. Belə hallarda ılıq (50-60 dərəcə temperaturda) bitki yağına əzilmiş sarımsaq əlavə olunaraq bir müddət gözlədikdən sonra problemli nahiyəyə çəkilir. Sarımsaqdan hazırlanan preparatlar damarları içdən təmizləyir».

tədqiqat

## İflic insanların fikirlərinin şifri açılıb

İsveçrəli alimlər tamamilə iflic vəziyyətinə düşmüş insanlarla ünsiyyət qurmağa imkan verən sistem yaradıblar.

Neyrofizioloqlar iflic olmuş insanla ünsiyyət zamanı onun beyninin bu və ya digər sahələrinin fəallığını izləmək üçün maqnit-rezonans tomoqrafından və infraqırmızı spektroskopdan istifadə ediblər.

Tamamilə iflic vəziyyətində olan dörd nəfərin iştirak etdiyi eksperiment nəticəsində alimlər müvafiq cihazlardan alınan informasiyanı «hə» və ya «yox» şəklində cavablara interpretasiya edə biliblər.

Eksperiment iştirakçıları öz qohumlarını tanıyıb və sadə suallara cavab verə biliblər. Pasiyentlərdən biri hətta öz qızının ərə getməsini qadağan edib.

Tədqiqat müəlliflərindən biri deyib: «Bu heyrətamiz nəticə mənim özümün yaratdığım bir nəzəriyyəni təkzib edir ki, «qapalı insan sindromu»ndan əziyyət çəkən, tamamilə iflic vəziyyətində olan insanlar prinsip etibarilə xarici aləmlə ünsiyyətə qabil deyil. Bizim təcrübələr göstərdi ki, dörd nəfər könüllünün hər biri onlara verilən şəxsi xarakterli sualları yalnız fikrin gücü hesabına cavablandıra biliblər.

cəmiyyət

## Robot-polis asayiş keşiyində

Çinin Henan əyalətinin dəmir yolu vağzalında ilk robot-polis vəzifə səlahiyyətlərinin icrasına başlayıb.

Robot-polis artıq Çjençjou şəhərinin sürətli qatarlar vağzalının gözləmə zalında fəaliyyət göstərir. Təkərlər üzərində hərəkət edən robota sensorlar quraşdırılıb. O, insanın köməyi olmadan ərazini qoruyur, sərnişinlərin üzünün skan edilməsi və tanınması funksiyasını yerinə yetirir. Bundan başqa, robot sərnişinlərin suallarını cavablandıra, yanğın təhlükəsi barədə xəbərdarlıq edə bilir.

Qeyd edək ki, bir həftə ərzində robot test rejimində işlədikdən sonra axşam növbəsində də çalışacaq.

şəbəkə

## «Facebook»da yeni funksiyalar

«Facebook» messenger tətbiqinə birdən çox istifadəçiylə görüntülü danışma xüsusiyyətini əlavə edib. 50-yə qədər şəxsin iştirak edə biləcəyi söhbət qruplarında ən çox altı adamla görüntülü danışmaq imkanı təqdim edilir. Şəbəkədəki dostlarınızla görüntülü qrup danışığı etmək üçün içində olduğunuz və ya yeni açılan söhbət qrupunun sağ tərəfində, üstdə video işarəsinə toxunmağınız kifayət edəcək. Yeni funksiyanı hazırda «iOS»larda həyata keçirmək mümkündür. «Android» platformalı telefonlarda isə onun nə vaxt istifadəyə veriləcəyi hələlik açıqlanmayıb.

«Facebook» sosial şəbəkəsi ilə bağlı yeniliklərdən biri də «Live Audio» xidmətinin sınaqdan keçirilməsidir. Bu xidmət sayəsində onlayn rejimdə audio yayımlar həyata keçirmək mümkün olacaq. Funksiya öncə radiostansiyalara və audiokontentlə işləməyə üstünlük verən şirkətlərə istiqamətlənib. Sosial şəbəkənin ilk tərəfdaşları BBC və LBC olublar.

İstifadəçilər «Android» və «iOS» əməliyyat sistemlərində «Facebook» əlavəsində radio dinləyə biləcəklər. Bununla belə, «iPhone» və «iPad» sahibləri üçün striminq yalnız sosial şəbəkənin açıq xidmətində əlçatan olacaq. «Android» cihazların istifadəçiləri isə yayımları cihazın ekranı blokda olan zaman da dinləyə biləcəklər.

«Facebook» sosial şəbəkənin bütün iştirakçıları üçün artıq 2017-ci ilin əvvəlindən audio yayımlara başlamağı planlaşdırır.




ELAN

**«Vergilər» qəzetinə
2017-ci il üçün
abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyinizi xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22

**Müdriklər deyib ki...**



***«Aşiq sevgilisinə hədiyyə verərkən hansı hissi keçirirsə, vətəndaş da vergi ödəyərkən həmin hissi yaşamalıdır».***

***Novails (1772–1823)***